

Milli azadlıqdan şirin nemət yoxdur!

# Əmək pensiyaları indeksləşdirilir

## Prezident İlham Əliyev sərəncam imzalayıb



Bax səh. 2


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

6 fevral 2025-ci il, cümə axşamı

№ 021 (6849)

Qiyməti 60 qəpik




# Birliyimiz və strateji müttəfiqliyimiz daim yaşayacaq...

Bax səh. 2

# Sərnişin təyyarəsi kənar müdaxilə nəticəsində qəzaya uğrayıb




Bax səh. 4

## Bank sektorunda risklər azdır




Bax səh. 6

## USAİD-in korrupsiya "bataqlığı"...



Bax səh. 3

## İki il əvvəl baş vermiş faciə...

## 18 ildən sonra...

Türkiyə Yaxın Şərqdə sülh, sabitlik və təhlükəsizliyə təminat verən aparıcı ölkəyə çevrilir - regional və beynəlxalq güc mərkəzləri Ankaranın regionda geostrateji və geosiyasi mövqeyini və maraqlarını nəzərə almaq məcburiyyətində olacaqlar. Son proseslər onu deməyə əsas verir ki, regionda qardaş ölkə - Türkiyəyə inam və etimad artır. Türkiyə nəinki Suriyada, həmçinin Yaxın Şərqin digər bölgələrində də geniş təsir imkanlarına malik olacaq.

Fevralın 4-də Suriyanın yeni hökumətinin lideri Əhməd əl-Şəraa Türkiyəyə rəsmi səfər edib. Qeyd edək ki, bu, 18 ildən sonra Türkiyəyə Suriya lideri tərəfindən edilən ilk səfərdir. Eyni zamanda qeyd etmək lazımdır ki, son on beş ildə Türkiyə ilə Suriya arasında heç bir diplomatik-siyasi münasibətlər olmayıb. Əl-Şəraanın bu səfəri iki ölkə arasında ikitərəfli münasibətlərin yenidən bərqərar olunmasına yol açacaq.

"TRT"- nin məlumatına görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Əhməd əl-Şəraa arasında baş tutan ikitərəfli görüşdə diplomatik-siyasi, iqtisadi-ticari və humanitar...

Bax səh. 7

## Sülh üçün zəmin

Bax səh. 3

## Əlilliyi olan şəxslər üçün güzəştlər...

Bax səh. 4

## Neokolonializmə qarşı yeni mübarizə dalğası

Bax səh. 5

## Doğru zamanda, düzgün dozada...

Bax səh. 8

## Aİ missiyası sülh prosesinə zərər vurur

Qərb Cənubi Qafqazda öz maraqlarını təmin etmək üçün Ermənistandan alət kimi istifadə edir. "Mülki missiya" adı ilə hərbi-kəşfiyyat qrupunun bu ölkənin ərazisində mövcudluğu da sözügedən məqsədlər sırasındadır. Əslində, son iki ildə sübut olunub ki, regionda Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının (EUMA) gerçək məqsədi sülhə töhfə vermək deyil.

Bütün bunların fonunda Avropa İttifaqı missiyanın müddətini daha iki il uzatmağa qərar verib. Avropa İttifaq Şurasının yaydığı məlumata görə, İttifaq ölkələri EUMA-nın fəaliyyətinin 2027-ci ilin fevralın 19-dək uzadılması barədə razılıq əldə ediblər. Müşahidə missiyasına bu dövr üçün 44 milyon avrodan çox büdcə ayrılıb. "EUMA Avropa İttifaqının regionda sülh və sabitliyin dəstəklənməsi səylərinin mühüm tərkib hissəsidir. Missiyanın məqsədi yerdəki vəziyyəti müşahidə etmək və hesabat vermək...

Bax səh. 7




# Trampın Qəzza planı

Bax səh. 7



# Əmək pensiyaları indeksləşdirilir

## Prezident İlham Əliyev sərəncam imzalayıb

**Prezident İlham Əliyev "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, sərəncamda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2025-ci il yanvarın 1-nə 2024-cü il üzrə Dövlət Statistika Komitəsinin müəyyən etdiyi orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2025-ci il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsinin, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə - həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləğinin və 2023-cü il yanvarın 1-dən əmək pensiyalarının tərkibinə daxil edilən maddi yardımların, istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində 2025-ci il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirmək tapşırılıb. Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.**

# Birliyimiz və strateji müttəfiqliyimiz daim yaşayacaq...



**Prezident İlham Əliyev: Azərbaycanın Kahramanmaraş vilayətində aparılan yenidənqurma və bərpa işlərinə töhfə verərək Türkiyənin yanında çiyin-çiyinə olmağından böyük fəxr və qürur hissi duyuruq**

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktub ünvanlayıb. Məktubda bildirilir: "İki il əvvəl Türkiyədə baş vermiş dağıdıcı zəlzələ nəticəsində həyatlarını itirmiş bacı-qardaşlarımızın əziz xatirəsini dərin hörmət və ehtiramla anır, onlara uca Allahdan rəhmət, doğmalarına və yaxınlarına səbir diləyirəm. Azərbaycan bu dəhşətli faciə ilə bağlı qardaş Türkiyənin dərdini bölüşür, kədərini birlikdə yaşayır. Azərbaycan hər zaman olduğu kimi bu ağır günlərdə də Türkiyənin yanında yer aldı, zəlzələ xəbərinin ilk dəqiqələrindən bir yumruq kimi bütün səviyyələrdə qardaş Türkiyənin ətrafında səfərbər oldu, əlindən gələn yardımı və dəstəyi əsirgəmədi. Həmin çətin günlərdə bütün Azərbaycan xalqının ürəyi Türkiyə ilə bir döyünürdü. Bu gün güclü və qüdrətli Türkiyə dövləti Sizin rəhbərliyiniz altında fəlakətin nəticələrinin aradan qaldırılması, zərərçəkmiş bölgədə həyatın və iqtisadiyyatın dirçəldilməsi, insanların yeni evlər və iş yerləri ilə təmin olunması istiqamətində genişmiqyaslı quruculuq işləri həyata keçirir. Qardaşlıq və vəfa borcumuzun bir parçası olaraq Azərbaycanın da öz növbəsində Kahramanmaraş vilayətində aparılan yenidənqurma və bərpa işlərinə töhfə verərək Türkiyənin yanında çiyin-çiyinə olmağından böyük fəxr və qürur hissi duyuruq".

Məktubda "Bir millət, iki dövlət" prinsipi əsasında həm sevincli, həm də kədərli günlərdə bir-birinə dayaq olan ölkələrimiz və xalqlarımızın məhz çətin anlarda qarşılıqlı dəstək göstərərək qardaşlığını və həmrəyliyini sübut etdiyi vurğulanıb. Qeyd edilib ki, bu, həmişə belə olub və bu cür də davam edəcəkdir: "Əminəm ki, bir-birinə qırılmaz tellər ilə bağlı olan xalqlarımızın iradəsi ilə zamanın sınaqlarından çıxmış birliyimiz və strateji müttəfiqliyimiz daim yaşayacaq, ölkələrimizin rifahı və əmin-amanlığı naminə qarşıya qoyduğumuz hədəflərə çatmaq üçün birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu anım günündə bir daha Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm".

# BVF-nin gözləntiləri nikbindir

## Valyuta Fondu ölkəmizdə aparılan islahatlardan razıdır

### Fond özəl sektora dəstək verməyə hazır olduğunu bəyan edib

Beynəlxalq Valyuta Fondu (BVF) Azərbaycanda iqtisadi şaxələndirməyə və bu sahədə özəl sektorun rolunun artırılmasına öz dəstəyini verməyə hazır olduğunu bəyan edib. Fondun Yaxın Şərq və Mərkəzi Asiya Departamenti üzrə missiya rəhbəri Anna Bordonun başçılıq etdiyi nümayəndə heyəti ilə maliyyə nazirinin müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Azər Bayramovun görüşündə IV Maddə Məsləhətləşmələri üzrə danışıqlar aparılıb. Görüş zamanı IV Maddə Məsləhətləşmələrinə dair hazırlıq işləri və bununla əlaqədar BVF tərəfindən aparılacaq analitik təhlillərin istiqamətləri diqqət mərkəzində olub.

Görüşdə ölkəmizin 2024-cü il dair makroiqtisadi yekunları, dövlət və icmal büdcələrin icrası, 2025-ci il və ortamüddətli dövr üzrə büdcə planları və gözləntiləri, büdcə siyasətinin istiqamətləri, büdcə qaydasının tətbiqi ilə bağlı məsələlər, ölkə iqtisadiyyatının inkişaf perspektivləri, o cümlədən qeyri-neft sektorunun sabit artımı, büdcə-vergi siyasəti sahəsində aparılan islahatlar və əldə olunan nəticələrlə bağlı geniş məlumat verib, xərclər üzrə səmərəliliyin artırılması istiqamətində atılan addımlara diqqət çəkilib.

## Şəffaflığın və iqlim fəaliyyətinin gücləndirilməsi təqdir edilir

BVF-nin missiya rəhbəri bildirib ki, 2025-ci il üzrə IV Maddə Məsləhətləşməsi sənədində Azərbaycanda iqtisadi artımın sürətlənməsi və inflyasiyanın azalması daxil olmaqla son iqtisadi inkişaflar, perspektivlər və risklər yer alır. A.Bordon ilə iqtisadiyyat naziri Mikayıl Cabbarov arasında keçirilən görüşdə isə vergi islahatları, dövlət-özəl tərəfdaşlığının, şəffaflığın və iqlim fəaliyyətinin gücləndirilməsi, həmçinin dövlətə məxsus müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi barədə müzakirələr aparılıb.

Beynəlxalq Valyuta Fondu Azərbaycan hökumətini neft amili nəzərə alınmadan yeni iqtisadi model hazırlayaraq həyata keçirdiyi islahatların müsbət səmərə verəcəyinə əminliyini ifadə edib. Fond azad biznesin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı qanunvericiliyin  də təkmilləşdirilməsini müsbət dəyərləndirib, eyni zamanda, sahibkarlıq sektorunda maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsini və bankların özəl sektora daha əlçatan kreditlər verməsini də vacib sayır. Tövsiyələrə əsasən, maliyyə bazarının inkişaf etdirilməsi, biznesin və ailə təsərrüfatlarının bank-maliyyə xidmətlərinə sərbəst çıxışının təmin edilməsi qeyri-neft sektorunun inkişafını daha da sürətləndirə bilər.

Valyuta Fondunun nikbin proqnozu: Azərbaycanda iqtisadi artımın yüksələcəyi gözlənilir.




## ÜDM-lə bağlı proqnozlar ümidvericidir

Ümumilikdə, Beynəlxalq Valyuta Fondunun Azərbaycan iqtisadiyyatının perspektivləri ilə bağlı gözləntiləri nikbindir. Fondun ötən il dərc etdiyi "World Economic Outlook" hesabatda qeyd edilir ki, Azərbaycanın makroiqtisadi göstəriciləri yaxşılaşmaqdadır və bu dinamika daha da artacaq. 2025-ci ildə iqtisadi artımın 4 faiz təşkil edəcəyi ehtimal olunur. BVF-nin bir müddət əvvəl dərc etdiyi "Regional iqtisadiyyatın inkişaf perspektivləri" adlı yeni hesabatda isə 2025-2028-ci illərdə Azərbaycan iqtisadiyyatının orta illik artım tempinin 3,5- 4 faiz olacağı fərz olunur.

Hazırda Azərbaycanda ÜDM-in 4,1 faizlik artım tempi dünya üzrə ümumi iqtisadi artım göstəricisindən (3,2-3,5 faiz) yüksəkdir. Bu faktor da ölkəmizdə iqtisadi inkişafı təmin edən mənbələrin dayanıqlılığı və növbəti dövrlər üçün əlavə potensialların səfərbər olunmasına imkan verdiyini təsdiqləyir. Bu tempin ilin sonunda və növbəti ildə də davam edəcəyi, qeyri-neft ÜDM-nin orta artımının 7-8 faiz təşkil edəcəyi gözlənilir. Fond 2025-ci ildə ÜDM-in 77 milyard dollara (131 milyard manat) qədər artacağını proqnozlaşdırır ki, bu da cari ildə ehtimal edlən əlavə dəyərin həcmindən nominal dəyər üzrə təxminən 3 milyard manat çox olacağı deməkdir.

Qeyd edək ki, bir neçə gün əvvəl Azərbaycan hökumətinin açıqladığı Ortamüddətli Xərclər Çərçivəsi sənədində də ÜDM-in illər üzrə artımı əks olunub. İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnozlara əsasən, 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcək. Orta müddətdə ÜDM-in real artım tempinin orta illik 3,3 faiz, qeyri-neft ÜDM-in isə 5 faiz olacağı proqnozlaşdırılır. 2024-cü ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz artacağı ehtimal edilir. Bu dinamika sonrakı illər üzrə davamlı şəkildə yüksələcək və 2028-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 77,8 faizə çatacaq, neft-qaz sektorunun payı isə 22,2 faizə bərabər olacaq.

## Azad ərazilər iqtisadi inkişaf üçün dayanıqlı mənbəyə çevrilir

Qarşıdakı illərdə Azərbaycanın qeyri-neft sektoru üzrə gəlirlərin yüksək artımında əsas mənbələrdən biri kimi işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası da mühüm rol oynayacaq. İşğaldan azad edilmiş ərazilərimizdə bir çox iqtisadi fəaliyyət sahələrinin inkişaf potensialının olmasını nəzərə alsaq, yaxın 4-5 ildə bu bölgənin iqtisadi artıma töhfələri olacaqdır. Belə ki, kənd təsərrüfatı sahələrindən arıçılıq və maldarlıq, balıqçılıq potensialı olan Zəngilan, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Xocalı, Laçın, Tərtər və Füzuli rayonlarında artıq aqrar layihələrin təməlləri qoyulmaqdadır. Yaxın perspektivdə bu bölgədə ən azı 232 min hektar sahədə əkinlərin olacağı proqnozlaşdırılır ki, bu da ölkə üzrə bitkiçilik məhsullarının istehsalının təxminən 12-15 faiz artımına səbəb olacaqdır. Hazırda bu ərazilərdə heyvandarlıq təsərrüfatlarının yaradılması işləri də davam etdirilir. Həmin bölgədə təqribən 45 min ton ət və 240 min ton süd istehsalının olacağı proqnozlaşdırılır ki, bu da idxalın əvəz edilməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi baxımından regionun əhəmiyyətinin böyük olmasını bir daha göstərir. Azərbaycanda qeyri-neft iqtisadiyyatının potensiallarının güclənməsində işğaldan azad edilmiş rayonların töhfəverici rolunun möhkəm bazalardan biri olacağına dərin zəmin yaradır.



***E.CƏFƏRLİ***

# İki il əvvəl baş vermiş faciə...

## Azərbaycan - Türkiyə dostluğunun möhkəmliyini bütün dünyaya göstərdi

**Tarixin bu günündə - 2023-cü il fevralın 6-da Türkiyə dəhşətli zəlzələ xəbəri ilə silkələndi. Episentiri Kahramanmaraş şəhərinə düşən 7,7 və 7,6 bal gücündəki dağıdıcı zəlzələ qardaş ölkənin tarixində ən faciəvi səhifələrdən biridir. Bu gün faciənin ikinci ildönümü tamam olur.**

### 53 mindən çox insanın həyatına son qoyan faciə

Təbii fəlakətin miqyası kifayət qədər böyük olub. Dağıdıcı zəlzələdə 53 min 537 nəfər həyatını itirib, 107 min 213 nəfər isə müxtəlif bədən xəsarətləri alıb. Zəlzələ nəticəsində 38 min 901 bina dağılıb. Verilən məlumata görə, 11 vilayət, 124 rayon, 6929 kənd və məhəllə olmaqla 120 min kvadratkilometr əraziyə və 14 milyon insana təsir edən bu zəlzələ insan itkisi və əhatə etdiyi ərazi baxımından dünya üzrə ən dağıdıcı təbii fəlakətlər siyahısına daxil olub.

Təbii fəlakət bölgəsinə 650 min nəfərlik işçi qüvvəsi cəlb olunub. Onlardan 11 min 488-i beynəlxalq olmaqla 35 min 250-si axtarış-xilasetmə, 142 mini isə təhlükəsizlik işçisi idi. Bütün bu işlərin aparılması üçün 20 min avtomobil və tikinti texnikası, 141 helikopter, 182 təyyarə və 23 gəmi ayrılıb.

İlkin mərhələdə bölgəyə bir milyon çadır çatdırılıb ki, bu da təxminən 2,5 milyon zərərçəkənin müvəqqəti sığınmasına imkan yaradıb. Bölgədən 3 milyon 549 min nəfər təxliyə edilib.

Türkiyə dövləti ənənəvi olaraq monolit və ümummilli ideyalara sadiq olan cəmiyyəti ilə fərqlənib. Qəhrəman türk xalqı miqyası çox böyük olan 6 fevral faciəsini də bir sınaq kimi qəbul etdi. Eyni zamanda, bütün dünya Türkiyə dövlətinin və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğanın çətin məqamlarda xalqın yanında olduğuna şahidlik etdi. Bunu zəlzələ baş verən bölgələrdə həyata keçirilən bərpa işləri əyani şəkildə təsdiqləyir. Fəlakət zonasında bütün kəndlərin 2025-ci ilin sonunadək bərpa ediləcəyi gözlənilir. Təkcə Kahramanmaraş vilayətində dağıdıcı zəlzələlərdən keçən iki il ərzində 345 kənd bərpa edilib, habelə burada 15 min ev tikilib. Onlardan sonuncusu bu ilin sonunadək zərərçəkmiş rayon sakinlərinə təhvil veriləcək. Bu barədə Türkiyənin Ekologiya, Şəhərsalma və İqlim Dəyişiklikləri Nazirliyi yanında Tikinti İşləri Departamentinin baş direktorunun müavini Murat Akınbingöl məlumat verib.



Bölgənin bərpasını sürətləndirmək üçün 67 fərqli şirkətə Kahramanmaraşın 11 kəndində tikinti işləri aparmaq hüququ verilib. Akınbingöl qeyd edib ki, artıq 1100 ev Kahramanmaraşın evsiz qalmış kəndliləri arasında paylanıb. Bundan başqa, daha 9 min evin sahibinin müəyyənləşdirilməsi üçün püşkatma keçirilib. Qalan yaşayış binaları isə 2025-ci il ərzində istifadəyə veriləcək.

Bu günlərdə bir qrup jurnalist Kahramanmaraşın Türkoğlu rayonunda 2023-cü ildə baş verən zəlzələlər nəticəsində əksər evlərin dağıldığı kəndlərdən birinə baş çəkib. Artıq buradakı Özbək kəndində sahəsi 105-108 kvadratmetr olan 55 ev tam hazırdır. Yeni tikinti layihələrinin icrası zamanı Anadolunun bu hissəsinin xarakterik memarlıq xüsusiyyətləri mütləq qaydada nəzərə alınır.



### Yardıma gələn birinci, fəlakət bölgəsini tərk edən sonuncu ölkə...

Həmişə bir-birinin yanında olan Azərbaycan və Türkiyə yaxşı günlərin sevincini bölüşdükləri kimi, çətin anlarda da bir-birinə qardaşlıq dəstəyi göstərirlər. İki il bundan əvvəl baş verən zəlzələ zamanı da belə oldu. Azərbaycan qardaş ölkənin faciəsini öz kədəri kimi qəbul edib. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısına başsağlığı verib. O, fevralın 6-da Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanlayıb. Məktubda yazılıb: “Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi. Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildiririk”. Dövlətimizin başçısı faciə ilə əlaqədar türk həmkarına, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verib, yaralananlara şəfa diləyib. Prezident İlham Əliyev, həmçinin zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıb.

Bu mənəvi-siyasi dəstəklə yanaşı, Azərbaycan yardıma birinci gələn və fəlakət bölgəsini son tərk edən ölkə olub. Zəlzələnin ilk günü - fevralın 6-da Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri Türkiyəyə yola düşüb. Fevralın 7-də ilkin olaraq mobil səhra hospitalı və 41 nəfərdən ibarət peşəkar tibbi və qeyri-tibbi heyət Türkiyəyə göndərilib. Daha sonra isə növbəti təyyarə ilə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, ədyal və qızdırıcılar, habelə mobil səhra hospitalı üçün 3 ədəd konteyner göndərilib. Fevralın 8-də Fövqəladə Hallar Nazirliyinin daha 227 nəfərdən ibarət çevik xilasetmə qüvvələri qardaş ölkəyə yola düşüb. Dövlət xətti ilə texniki dəstək və humanitar yardımlar sonrakı günlərdə də ardıcıl şəkildə davam etdirilib.



Bundan başqa, birinci xanım Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu Türkiyənin zəlzələ bölgəsinə humanitar yardımlar yola salıb. Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi (RİİB) Türkiyənin ölkəmizdəki səfirliyinin zəlzələ bölgəsinə humanitar yardım göstərilməsi məqsədi ilə Azərbaycan vətəndaşlarına çağırışına qoşularaq qardaş ölkəyə dəstək məqsədilə humanitar yardım kampaniyasına start verib. Deyə bilərik ki, Heydər Əliyev Fondunun çağırışı ilə bu kampaniyaya bütün Azərbaycan cəmiyyəti qoşulub. Həmin günlərdə sadə bir azərbaycanlı ailənin zəlzələ bölgəsinə yorğan-döşək göndərməsini əks etdirən foto Azərbaycanda və Türkiyədə, eləcə də dünya mətbuatında manşetlərdə yerləşdirildi. Bəli, həmin günlərdə Azərbaycanda hər kəsin qəlbi Kahramanmaraşda, zəlzələdən zərər çəkmiş insanlarla bir yerdə döyünürdü. Bu, əsl qardaşlıq, doğmalıq hissi idi.

Azərbaycanın qardaşlıq dəstəyi Türkiyə dövləti və cəmiyyəti tərəfindən yüksək qiymətləndirilib. Rəcəb Tayyib Ərdoğan İlham Əliyevlə telefon danışığında hərtərəfli dəstəyə görə Azərbaycana təşəkkürünü bildirib. “Biz necə Qarabağ müharibəsində qardaşlarımızın yanında olduqsa, Türkiyədəki fəlakətdə də İlham qardaşım bütün komandası ilə bizim yanımızda yer aldı”, - deyə R.T.Ərdoğan vurğulayıb.



Eyni zamanda, qardaş ölkənin lideri Azərbaycan FHN-nin xilasedici giziri Elvin İsgəndərovu, Müdafiə Nazirliyi Tibb Xidmətinin polkovniki Niyamədin Ağamalıyevi və zəlzələdən sonra Türkiyəyə gedən gənc könüllülərdən Ayxan Allahverdiyevi “Yüksək Fədakarlıq Ordeni və Medalı” ilə təltif edib.

### Kahramanmaraşda “Azərbaycan” məhəlləsi

Kahramanmaraşda “Azərbaycan” məhəlləsinin yaradılması ölkəmizin Türkiyəyə qardaşlıq dəstəyinin daha bir nümunəsidir. Layihə 100 milyon dollarlıq tikinti işlərini əhatə edir. “Azərbaycan və Türkiyə arasında Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikintisi barədə əməkdaşlıq haqqında” saziş 2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində imzalanıb. Sənədi Azərbaycan tərəfdən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Türkiyə tərəfdən isə ətraf, şəhərsalma və iqlim dəyişikliyi naziri Mehmet Özhaseki imzalayıblar. R.T.Ərdoğan isə noyabrın 11-də sazişi təsdiqləyib.

Kahramanmaraş vilayətində inşa olunan “Azərbaycan” yaşayış məhəlləsinin ümumi sahəsi 32 hektar təşkil edir. Layihəyə əsasən məhəllə yaşayış binaları, ibtidai məktəb və uşaq bağçası, mədəniyyət mərkəzindən ibarətdir. Məhəllədə 71 yaşayış binasını inşası layihələndirilib. Bu binalarda 2, 3 və 4 otaqlı 1323 mənzil olacaq. Eyni zamanda, həmin ərazidə məskunlaşacaq sakinlərin iş yerləri ilə təmin olunması məqsədilə yaşayış binalarında 799 qeyri-yaşayış (ticarət) obyekti istifadəyə veriləcək.

Kahramanmaraşda “Azərbaycan” məhəlləsində tikilmiş mənzillərin sahiblərinin ilk qrupu dağıdıcı zəlzələnin ikinci ildönümündə püşkatma vasitəsilə müəyyən olunacaq.

Bu barədə Kahramanmaraş Böyük Şəhər bələdiyyəsinin sədri Fırat Görgel məlumat verib. O bildirib ki, Azərbaycan hökuməti xətti ilə yaşayış massivi ərazisində aparılan işlərə cavabdeh orqan Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyidir (MİDA). Türkiyə tərəfdən isə layihənin icrasında Mənzil İnşaatı İdarəsi (TOKİ) iştirak edir: “Azərbaycan xalqına və Prezident İlham Əliyevə səmimi təşəkkürümüzü bildiririk. Qardaş ölkənin dəstəyi ilə Kahramanmaraşda zəlzələ nəticəsində dağılmış ərazilər bərpa olunur”.

O qeyd edib ki, əyalət Azərbaycanla qədim tarixi bağlara malikdir. Görgel xatırladıb ki, Türkiyədə baş vermiş dağıdıcı təbii fəlakətdən əvvəl şəhərin mərkəzi və ən canlı küçələrindən birinə “Azərbaycan” adı verilib.

“Kahramanmaraşda “Azərbaycan” məhəlləsi tək yaşayış binaları və ticarət meydanlarından ibarət deyil, burada həmçinin məktəb və mədəniyyət mərkəzi də inşa edilib. Layihə çərçivəsində aparılan işləri yaxın aylarda bitirmək planlaşdırılıb. Bundan sonra məskunlaşma prosesi başlayacaq”, - deyə o qeyd edib.

“Azərbaycan” məhəlləsində fəaliyyət göstərən Heydər Əliyev adına məktəbdə tədris prosesi isə davam edir.

*Mübariz ABDULLAYEV*

# Sülh üçün zəmin

## Sərhəddə üçüncü qüvvələrin yerləşdirilməsi müsbət perspektiv vəd etmir

Azərbaycanın irəli sürdüyü sülh təşəbbüsü bölgə üçün mühüm perspektiv vəd edir. Qeyd edilməlidir ki, delimitasiya və demarkasiya komissiyaları arasında keçirilən çoxsaylı görüşlər, ötən ilin aprelində 4 kəndin azad edilməsi ilə bağlı razılığın əldə olunması, ikitərəfli komissiyanın fəaliyyətinin əsasnaməsinin təsdiqi sülhü addım-addım yaxınlaşdıran amillər sırasında qeyd olunur. Sülh razılaşması ilə bağlı əhəmiyyətli irəliləyiş nəzərə çarpır - düzdür, bir müddət öncəyə qədər Ermənistan bəzi məsələlərlə bağlı adekvat mövqe sərgiləməsə də, deyəsən artıq situasiya dəyişir. İrəvan sülhün vacib olduğu qədər region üçün hansı gələcək vəd etdiyini də anlamaqdadır. Hətta bunu təsdiq belə edirlər...

### Şərtlər aydındır...

Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyan Vaşinqtonda, Atlantic Council təşkilatında çıxışı zamanı Ermənistanın münaqişəli məsələlərin müzakirəsini başa çatdırmaq və Azərbaycanla ikitərəfli münasibətlərdə yeni dövr açmaq istədiyini bildirib. Onun sözlərinə görə, Ermənistan sülh müqaviləsinin qalan iki bəndi ilə bağlı Bakıya təkliflərini təqdim edib. Bu məsələlər aşağıdakılardır:

- Sərhəddə üçüncü qüvvələrin yerləşdirilməsinə qadağa: Bakı tam qadağa tələb etsə də, İrəvan bunun yalnız delimitasiya edilmiş ərazilərə şamil edilməsini təklif edir.

-Beynəlxalq məhkəmələrdə qarşılıqlı iddiaların geri götürülməsi: Paşinyan qeyd edib ki, Ermənistan buna hazırdır, lakin şərt olaraq bu məsələlərin ikitərəfli danışıqlarda da gündəmə gətirilməməsini istəyir.



Ermənistanın baş naziri həmçinin vurğulayıb ki, tərəflər artıq əsas bəndlərdə - o cümlədən SSRİ dövrünün xəritələri əsasında bir-birinin ərazi bütövlüyünün tanınması məsələsində razılığa gəliblər. Onun fikrincə, sülh sazişinin imzalanması yaxınlaşır və bunun üçün yalnız siyasi iradə nümayiş etdirmək qalır.

### Azərbaycan xəbərdarlıq edib...

Vurğulandığı kimi, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması Cənubi Qafqazın həyatında yeni - sabit və inkişafa yönəlik dövrün başlama perspektivini formalaşdırır. İrəvan bunu detallı şəkildə qavramalıdır - post-müharibə dövründə məntiqi nəticə kimi meydana çıxan sülh prosesi özlüyündə həm də siyasi-iqtisadi nizamın yeni qaydalarını ehtiva edir. Ermənistan başa düşməlidir ki, qeyri-konstruktiv mövqe nümayiş etdirməklə heç nə əldə edə bilməz - tam əksinə, Cənubi Qafqaz yeni dövrdə özünün tam potensialını nümayiş etdirmək imkanlarından məhrum olur. İrəvan qeyri-adekvat davranışıyla bölgə üçün yeni bir gələcək vəd edən nəqliyyat - kommunikasiya layihələrinin gerçəkləşdirilməsini gecikdirir. Eyni zamanda, sülhün gecikməsi yeni eskalasiya üçün zəmin yaradır. Ermənistanın silahlandırılması prosesi ciddi formada təftiş edilir və Azərbaycan dəfələrlə bildirib ki, bu məsələdə müşahidəçi olmayacaq. Nəticə etibarı ilə isə Cənubi Qafqazın stabil və sabit məkan kimi şöhrət qazanması, tanınması, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapması ehtimalları azalır. Azərbaycanın irəli sürdüyü sülh təklifi və bu istiqamətdə aparılan fəaliyyət bütövlükdə Cənubi Qafqaz üçün mühüm inkişaf tempi perspektivi vəd edir. Sülhün astanasında dayanarkən verilən bəyanatlar, səsləndirilən fikirlər bu prioritetin nə qədər ciddi olması ilə yanaşı, uğur qazanma ehtimalının da böyüklüyünü ortaya qoyur.

### Sülh üçün vacib məqam...

Paşinyanın ifadə etdiyi “Sərhəddə üçüncü qüvvələrin yerləşdirilməsinə qadağa” məsələsi olduqca vacib nüansdır. O baxımdan ki, şərti sərhəd bölgəsində Aİ missiyasının xidməti fəaliyyət dövrünün artırılması birmənalı qarşılana bilməz. Bir tərəfdən sülh haqqında danışan Ermənistan digər tərəfdən, regionda fərqli qüvvələrin təmsilçiliyindən imtina etmir. Halbuki həmin qrupun hansı missiya ilə məşğul olması sirr deyil. Bu missiyanın regionda varlığı sülh üçün ən böyük maneələrdən biridir. Ermənistana üzdə “havadarlıq” edən, arxa planda isə özünün korporativ maraqlarını əsas götürən Fransa məhz bu missiyanın əli ilə sülhün reallaşmasına bu və ya digər şəkildə əngəl törədir. Prezident İlham Əliyev ötən il “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində bildirmişdi ki, sülh sazişi sənədinin razılaşdırılmamış maddələrindən biri başqa ölkələrin nümayəndələrini bizim sərhədimizdə yerləşdirməməklə bağlıdır: “Bu, niyə bizim üçün vacibdir? Çünki sözdə Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradılıb. Axı, bu müşahidəçilərin göndərilməsi məsələsi bizimlə 2022-ci ilin oktyabrında Paşinyan, Avropa Şurasının Prezidenti Şarl Mişel, Fransa prezidenti və mənim aramda keçirilən dördtərəfli görüşdə razılaşdırılıb. O vaxt Fransa hələ bizim tərəfimizdən normallaşdırma prosesindən kənarlaşdırılmamışdı. Belə bir razılıq əldə edildi ki, Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində məhdud kontingenti olacaq. İki aylığına 40 nəfər yerləşdiriləcək. Bundan sonra bu missiya bizimlə razılaşdırılmadan uzadıldı və arqument bundan ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı, bu missiya Ermənistan ərazisindədir. Bizim isə arqumentimiz belə idi: razılığa gələndə siz niyə bizimlə razılaşdırdınız? Axı, belə olmaz. Sonra onların sayı 200 nəfərdən çox artırıldı. Bundan başqa, bu missiya tədricən NATO-nun missiyasına çevrildi, belə ki, oraya Kanadanın nümayəndələri qoşuldu. Beləliklə, bu, bizim razılığa gələcəyimiz ikinci maddədir”.



Ötən dövr ərzində isə kəşfiyyat qrupunu tam şəkildə Ermənistana yerləşdirmək imkanı “qazanan” Fransanın məqsədi ortadadır - onlar nəinki real situasiyanı monitorinq edir, birmənalı şəkildə Azərbaycana qarşı təxribatların hazırlanmasında iştirakçı qismində çıxış edirlər.

### Ermənistan anlamalıdır ki...

Qeyd edək ki, bir müddət öncə “Stratfor” analitik mərkəzi də yaydığı məlumatda demarkasiya prosesi dayandırılacağı təqdirdə, ilin ikinci yarısında Ermənistan-Azərbaycan sərhədində gərginliyin arta biləcəyini yazıb. Bununla belə, “Stratfor” yaxın gələcəkdə ciddi eskalasiya riskinin “kifayət qədər aşağı səviyyədə” qalacağını proqnozlaşdırıb. Hazırda delimitasiya prosesi davam etməkdədir. Ermənistan isə adıçəkilən bölgəyə “casus şəbəkəsi”ni yerləşdirməklə gərginliyi artırır.

Halbuki Azərbaycanın iradəsinə əsasən baş tutan ikitərəfli təmaslar məsələnin həlli üçün olduqca əlverişli bir müstəvi formalaşdırıb. Keçirilən ikitərəfli görüşlər onu göstərir ki, məsələnin qarşılıqlı təmas formatında real həlli mövcuddur. Məsələyə kənar müdaxilə və ya fərqli vasitəçilik “arzusu” üçüncü bir tərəfin bu və ya digər şəkildə ən minimal həddə də olsa öz maraqları müstəvisindən çıxış etməsinə yol açır. Bu mənada, Azərbaycan müzakirələrin ikitərəfli təmas formatında inkişafını dəstəkləyir.

Beləliklə, Ermənistan üçün hazırkı münbit şərait bir çox üstünlüklər vəd edir - İrəvan destruktiv açıqlamalardan və fikirlərdən, əməllərdən xüsusilə silahlanmadan uzaq dayanmaqla bölgənin gələcək perspektivi üçün öz töhfəsini təqdim etməlidir. Sülhün imzalanması bölgəyə yeni iqtisadi şəkillənndirmə verəcəyi qədər Ermənistanın da dirçəlməsinə vəsilə olacaq. Bu isə, İrəvanın dövlət maraqları ilə üst-üstə düşür...

*P.İSMAYILOV*

# Bank sektorunda risklər azdır

## “S&P Global Ratings” risk qiymətləndirməsini “sabit”dən “müsbət”ə dəyişib

Dünyanın nüfuzlu reytinq agentliyi olan “S&P Global Ratings” (“S&P”) Azərbaycanın bank sektorunun risk qiymətləndirməsini yaxşılaşdırıb. Sahə riskinin qiymətləndirməsini “sabit”dən “müsbət”ə dəyişib. “S&P” analitiklərinin fikrincə, bu müsbət tendensiya ölkədə son iki ildə 2024-2026-cı illər üçün Maliyyə Sektorunun İnkişafı Strategiyası çərçivəsində maliyyə institutlarına nəzarət və tənzimləmənin yaxşılaşdırılması təşəbbüslərini əks etdirir. Bu təşəbbüslər effektiv şəkildə həyata keçirildiyi təqdirdə Azərbaycanda banklara nəzarət və tənzimləmənin daha da gücləndirilməsinə imkan verəcək.




### Kredit portfeli 20 faiz artıb

“S&P Global Ratings” agentliyinin ekspert icmasının qənaətinə görə, Azərbaycanda bank aktivlərinin keyfiyyəti yaxşılaşıb və bank sektoru kreditlərə tələbi stimullaşdıran və aktivlərin keyfiyyətini yaxşılaşdıran xammal qiymətlərinin yüksək olması fonunda əlverişli makroiqtisadi şəraitdən faydalanır. 2024-cü ildə kredit portfeli həm pərakəndə, həm də korporativ kreditlər hesabına təxminən 20 faiz artıb.

Qeyd edək ki, 2024-cü ilin yekununda Azərbaycanın bank sektorunun aktivləri 53 milyard manatdan çox olub ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 7,8 faiz çoxdur. Mərkəzi Bankın məlumatına əsasən, ötən il bank sektorunun kredit portfeli 18,7 faiz artıb, aktivlərdə kreditlərin payı isə 44,4 faizdən 48,9 faizə yüksəlib. Hesabat dövründə bank sektorunun öhdəlikləri 7,6 faiz artaraq 46,3 milyard manata çatıb. Bank sektorunun xalis mənfəəti 1,4 milyard manat təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 3 faiz azdır. Ötən il bankların əməliyyat gəlirləri 17 faiz artaraq 5,6 milyard manata, əməliyyat xərcləri isə 25,6 faiz artaraq 3,9 milyard manata çatıb.

### 2025-ci ildə kredit reytinqləri müsbət çərçivədə qalacaq

“S&P Global Ratings” hesab edir ki, hazırkı müsbət dinamikanın davamlı qalacağı gözlənilləndir. İqtisadi artım üçün əlverişli perspektivlər, kreditlərə yüksək tələbat, xüsusilə pərakəndə satış, yaxşı maliyyələşdirmə və likvidlik göstəriciləri, eləcə də sabit gəlirlilik 2025-ci ildə bankların kredit reytinqlərini də müsbət çərçivədə qərarlaşdırmağa imkan verəcək. İnfrastruktur investisiyaları və əsas faiz dərəcəsinin azalması 2025-2026-cı illərdə kredit portfelinin ikirəqəmli artımına səbəb olacaq. Bütün bunların fonunda bankların tikinti sektorunda və ipoteka kreditləşməsində məhdud iştirakı risk səviyyəsini qismən azaldır və tendensiya davam edəcək.

“S&P Global Ratings” vurğulayır ki, tənzimləyici qurum (Mərkəzi Bank) son iki ildə banklar üçün yeni korporativ idarəetmə standartlarını, əlaqəli tərəflərlə sövdələşmələri məhdudlaşdıran tənzimləməni, həmçinin Bazel III tələblərinə uyğun olan likvidliyin idarə edilməsi normalarını tətbiq edib. Bu təşəbbüslərin səmərəli şəkildə həyata keçirilməsi Azərbaycanda banklara nəzarət və tənzimləmə sistemini daha da gücləndirə bilər. Reytinq agentliyi hesab edir ki, ölkəmizdə bank sektoru üçün gözlənilən risklər qlobal iqtisadiyyatdakından daha azdır. Bank sektorlarında tənzimləmə, nəzarət və korporativ idarəetmə inkişaf edir.




Qeyd edək ki, bir müddət əvvəl “S&P Global Ratings” (“S&P”) beynəlxalq reytinq agentliyi Azərbaycanda keçirilən COP29 Zirvə sammitində əldə edilmiş müsbət nəticələri nəzərə alaraq COP-la bağlı reytinq tərtibatına yenilənmiş yanaşma təqdim edib. Belə ki, COP29-da əldə olunan ən mühüm nəticələrdən biri kimi kollektiv iqlim maliyyələşdirilməsi və şəffaflıq platformasının yaradılması agentliyin reytinq baxışlarını da yeniləməyə sövq edib. “S&P Global Ratings” hesab edir ki, Bakıda iqlim ailəsi üçün geniş imkanlar aça biləcək maliyyə fondunun yaradılması, dövlət və özəl mənbələrdən hər il 300 milyard dollar məbləğində vəsaitin ayrılmasına dair anlaşmanın əldə olunması əvvəlki COP hədəfinin üç qatı olmaqla qlobal karbon emissiyasının azaldılması istiqamətində mühüm addım olacaq.




“S&P Global Ratings” hesab edir ki, COP29-dan sonra ölkələrin öz Milli Müəyyənləşdirilmiş Töhfələrini (NDCs) və iqlim dəyişikliyinə uyğunlaşma planlarını yenidən nəzərdən keçirəyi nəzərdə tutulub ki, bu addımlar fiziki iqlim risklərinə məruz qalan ölkələr üçün, orta və uzunmüddətli hədəflərə yönəldiləcək.

### COP29-un nəticələrinə əsasən yeni reytinq...

“S&P” hesab edir ki, daha iddialı maliyyə hədəfləri ölkələri daha iddialı planlar hazırlamağa sövq edə bilər ki, bu da iqtisadiyyatın əsas sektorlarına, xüsusən də inkişaf etməkdə olan ölkələrdə əhəmiyyətli təsir göstərəcək. Dayanıqlı maliyyə infrastrukturunun qurulması ekoloji maneələrin aradan qaldırılması və xalis sıfır emissiya məqsədlərinə nail olunması yolunda mühüm töhfə verəcək.

“S&P”nin ekspert qrupu hesab edir ki, maliyyələşmə institunun fəaliyyətə başlaması iqlim dayanıqlılığına həssas ölkələrin borc alətlərinin də qiymətləndirməsinə yeni baxışı formalaşdırır. Bu baxımdan, iqlim fəsadlarına məruz qalan ölkələr üçün maliyyə donorluğunun təmin edilməsi həm də borcların restrukturizasiyasını meydana çıxarır ki, COP-un reytinq qiymətləndirməsində yanaşmanın dəyişdirilməsi zərurəti yaranır.

Göründüyü kimi, Azərbaycanın yaratdığıl yeni iqlim strategiyası beynəlxalq iqtisadi qurumların və reytinq agentliklərinin, o cümlədən “S&P”nin hesabatlarında da yeni iqlim dəyərləndirmələrini labüdləşdirib.

***E.CƏFƏRLİ***

# Əlilliyi olan şəxslər üçün güzəştlər...

## Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib



Fevralın 5-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin onlayn iclası keçirilib. Komitə sədri Musa Quliyev gündəliyə iki qanun layihəsinin daxil edildiyini bildirib. Gündəliyin birinci məsələsi olan “Sosial sığorta haqqında” Qanunda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) əhəmiyyətindən söz açan komitə sədri sənədin əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasının, sosial müdafiəsinin gücləndirilməsinə xidmət etdiyini vurğulayıb. Belə ki, layihədə əlilliyi olan şəxslərin əl işlərinin satışının həyata keçirilməsi üçün dövlət tərəfindən dəstəkləyici tədbirlər, həmin əl işlərinin satışından əldə olunan gəlirlərə vergi güzəştləri və digər məsələlər nəzərdə tutulub.

Komitə sədri gündəliyin ikinci məsələsi olan Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, “Sosial sığorta haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Uşaq hüquqları haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında”, “Dövlət rüsumu haqqında”, “İcra haqqında“, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında”, “Əmək pensiyaları haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyaya qoşulmaq barəsində”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirib ki, sənəd “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Qanunda dəyişiklik edilməsi barədə” 2021-ci il 22 iyun tarixli Qanunun icrası ilə əlaqədar hazırlanıb. Dəyişikliklərə əsasən, “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri “əlilliyi olan uşaqlar” sözləri ilə əvəz edilir. Nəticədə, qanunvericilik sistemində əlilliyi olan uşaqlara münasibətdə terminoloji vahidlik  təmin olunur.

Komitə sədri bildirib ki, layihədə həmçinin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Qanuna yeni 12-1-ci   maddənin əlavə olunması nəzərdə tutulub. Yeni maddədə əlilliyi olan şəxslərin məlumat əldə etmək hüququnun təmin olunması məqsədi ilə qanunvericiliyə “Azərbaycan işarət dili” anlayışı gətirilir və Azərbaycan işarət dili ünsiyyət  dili kimi rəsmi şəkildə qəbul edilir.

Müzakirələrdə deputatlar Vüqar Bayramov, Nigar Məmmədova, Soltan Məmmədov, Əziz Ələkbərov və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər. Çıxışçılar qanunun tətbiqi mexanizmləri, Azərbaycan işarət dilinin öyrənilməsi, istifadəsi imkanları və digər məsələlərlə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əlillik siyasəti şöbəsinin müdiri Sabir Qocayev deputatların suallarını cavablandırıb, qaldırılan məsələlərə aydınlıq gətirib.

Müzakirələrin sonunda qanun layihələri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***Nardar BAYRAMLI***

# Rəqəmsal sektorun müasir biznes modeli

## “Startap” şəhadətnaməsi alan KOB subyektlərinin sayı 192-yə çatıb

Azərbaycanda rəqəmsal iqtisadiyyatın müasir trendlərindən biri olan startap ekosistemi artıq biznes ideyalarının mükəmməl aləti kimi özünü doğrultmaqdadır. Bir neçə ildir ki, fəaliyyət göstərən “Startap Azərbaycan” platforması startaplar, investorlar, maliyyə fondları, yeni rəqəmsal alətlərə dəstək verməklə gənc biznes komandasının təşviqinə və böyüməsinə səbəb olmaqdadır. Bunun nəticəsidir ki, süni intellektin atributlarından biri olan bu layihələrə qoşulan gənc istedadların sayı durmadan artır.

Startaplar uğurlu biznes layihəsi kimi kiçik və orta biznesin (KOB) marağında da ön plana çıxmaqdadır.Bu günlərdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) “Startap” şəhadətnaməsinin verilməsi üzrə yaradılmış Ekspertlər Şurası KOB subyektlərindən daxil olmuş 9 müraciətə baxaraq onlardan 4-nə “Startap” şəhadətnaməsinin verilməsini təsdiqləyib. Bununla da “Startap” şəhadətnaməsi almış KOB subyektlərinin sayı 192-yə çatıb.

**Güzəşt və iqtisadi təşviqlər yeni gənc nəsli formalaşdırır**

Qeyd edək ki,“Startap” şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edilib. Vergi Məcəlləsinin 102.1.31.-ci maddəsinə əsasən, “Startap” şəhadətnaməsi olan fiziki şəxs şəhadətnaməni aldığı tarixdən 3 il müddətinə və həmin startap şəhadətnaməsi üzrə innovasiya fəaliyyətindən əldə etdikləri gəlirləri vergidən azaddır. Həmçinin, startaplar üzrə texnoloji avadanlıqlar və madditexniki güzəştlər və təşviqlər də bu sahədə motivasiyaedici mühit yaradıb.

Startapların nüfuz etdiyi yüksək texnologiyalar parklarında da xüsusi aktivlik nəzərə çarpmaqdadır. Texnopark rezidentlərin sayının 96-ya yüksəlməsinə səbəb olub. Qeyd edək ki, Vergi Məcəlləsində edilmiş dəyişikliklərə və 2023-cü il yanvarın 1-dən qüvvəyə minən yeni qaydalara əsasən, texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkındankənar sistemə inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə mənfəət, gəlir, əmlak vergiləri, dividendlər, texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına münasibətdə ƏDV-dən azad edilib. Vergi güzəştləri onların həm texnopark, həm də texnoparkdankənar fəaliyyətinə şamil edilir.

Nəticədə bu güzəşt və motivasiyalar yüksək texnologiyalar və innovasiyalar sektorunda çalışan gənc biznes icmasının sistem inteqrasiyası, proqram təminatı, süni intelleket məhsulları üzrə inkişafında əlverişli mühit yaradır.

Həmçinin, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin yeni rəqəmsal texnologiyaların tətbiqinə, o cümlədən startap platformasına dəstəyi yeni biznes nəslinin formalaşmasında mühüm rol oynayır. Startap ailəsi yaxın xarici tərəfdaşları ilə süni intellekt və maşınların öyrənilməsi, əşyaların interneti və şəhər transformasiyası, rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə sıx əməkdaşlıq edərək iqtisadiyyatın rəqəmsallaşmasına da töhfə verirlər.

**Dünya Startap Yarışmasında Azərbaycan brendi**

Azərbaycanlı startapçılar biznes ideyaları, kəşf və bacarıqları ilə artıq qlobal bazarlarda uğurlu investorlar kimi qəbul edilir. Bu motivasiya sayəsində son illərdə Azərbaycanın İT və rəqəmsal sektorlarında startap, süni intellekt və biznes ideyaları dünya ölkələrinin startapları ilə rəqabət aparmağa çalışır. Onların KOBİA, Xəzər-Vençur, Elmin İnkişafı Fondu, Prezident yanında Gənclər Fondu, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasında təmsil olunan bacarıqlı gənc ideya müəllifləri kifayət qədər uğur qanmağa nail olub. Ölkəmizi təmsil edən “SkyBee” komandası Ümumdünya Startap Yarışmasının (World Startup Competition) Asiya və Afrika üzrə Regional Final Müsabiqəsində 30-dan artıq texnologiya şirkəti arasında “Aqrar sektorda ən yaxşı startap” nominasiyasının qalibi olub. Azərbaycanlı startapçılar artıq okenaın o tayında da rəqabət üçün imaknlarını sınamağa çalışır. Yaxın vaxtlarda ABŞ-da keçiriləcək Ümumdünya Startap Yarışmasına iştirak hüququ qazanmaq bu imkanları nümayiş etdirmək baxımından yaxşı fürsət hesab edilə bilər.

**Süni intellekt ölkəmizə 4,4 milyard dollar gəlir gətirəcək**

Azərbaycan 2040-cı ilə qədər iqtisadi artımın sürətləndirilməsində süni intellektin imkanlarından istifadə etməyi planlaşdırır və bu istiqamətdə beynəlxalq təşkilatlar və konsaltinq şirkətlərlə birgə layihələr icra etməyi düşünür. Qiymətləndirmələrə görə, Azərbaycan dilində generativ süni intellekt ölkə iqtisadiyyatına əlavə 4,4 milyard dollar gəlir gətirəcək. Bundan əlavə, böyük həcmli məlumatları generasiya edə biləcək rəqəmsal proqramın istifadəyə verilməsi bu potensialı daha da böyüdərək əlavə dəyərin həcmini də artıra bilər. Bu baxımdan startapların müasir biznes modeli kimi ön plana çıxması ölkəmizdə yüksək rəqabətli insan kapitalının formalaşmasında da mühüm rol oynayacaq.

***E.CƏFƏRLİ***

**Ötən il dekabrın 25-də “Azərbaycan Hava Yolları” QSC-yə məxsus sərnişin təyyarəsinin qəzaya uğramasının səbəbləri ciddi şəkildə araşdırılır. Artıq Azərbaycan və Qazaxıstan**

# Təsdiq olundu...

**rəsmi olaraq hadisənin araşdırılması ilə bağlı ilkin hesabatları açıqlayıblar. Sərnişin təyyarəsinin kənar müdaxilə nəticəsində qəzaya uğraması öz təsdiqini tapıb.**

## Sərnişin təyyarəsi kənar müdaxilə nəticəsində qəzaya uğrayıb

### Prinsipial mövqe...

Xatırladaq ki, AZAL-a məxsus və Bakı-Qroznı reysi ilə uçan sərnişin təyyarəsi dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarədə olan 67 nəfərdən 38-i həlak olub, 29 nəfər sağ qalıb. Qəzanın baş verdiyi ilk gündən Prezident İlham Əliyev hadisəyə operativ reaksiya verib, qəzanın təfərrüatlarının obyektiv araşdırılmasını, günahkarların cəzalandırılmasını, Azərbaycana təzminatlar ödənilməsini tələb edib. Məhz həmin gün Rusiyaya səfərini təxirə salaraq geri qayıdan dövlət başçısı vəziyyətlə bağlı hava limanında toplantı keçirib, qəzanın araşdırılması ilə əlaqədar Dövlət Komissiyası yaradılıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi “Azərbaycan Hava Yolları” QSC-yə (AZAL) məxsus “Embraer 190” tipli sərnişin təyyarəsinin Aktau hava limanı yaxınlığında qəzaya uğraması ilə bağlı Beynəlxalq Mülki Aviasiya Təşkilatının (BMAT) 1944-cü il Beynəlxalq Mülki Aviasiya haqqında Çikaqo Konvensiyasının 13 saylı Əlavəsinin tələblərinə uyğun aparılan araşdırmanın ilkin hesabatı barədə məlumat yayıb. Məlumatda bildirilir ki, Azərbaycan və Qazaxıstanın tərəfdar olduğu 1944-cü il Çikaqo Konvensiyasının 13 saylı Əlavəsinə əsasən, ərazisində hadisənin baş verdiyi dövlət kimi Qazaxıstan araşdırmaya başlayıb. Bu araşdırmanın məqsədi uçuşların və aviasiya təhlükəsizliyinin təmin edilməsi olub, təqsirli şəxslərin müəyyən edilməsi ilə bağlı deyil. Araşdırmanın nəticələri beynəlxalq aviasiya normalarına uyğun olaraq qəzanın obyektiv səbəblərini müəyyənləşdirmək və gələcəkdə oxşar hadisələrin qarşısını almaq üçün BMAT və maraqlı tərəflərə tövsiyələr verməkdir. Azərbaycan Respublikası hava gəmisinin istismarçısı, habelə mülkiyyətçisi olan ölkə statusu ilə araşdırmada iştirak edib. Azərbaycan nümayəndələri araşdırmanın bütün mərhələlərində, o cümlədən hadisə yerinə baxışın həyata keçirilməsi və faktların qeydiyyatı məqsədilə foto və videogörüntülərin təmin edilməsi, hava gəmisinin “qara qutu”larında (CVFDR avadanlıqlarında) olan məlumatların Braziliyanın Aviasiya Qəzalarının Araşdırılması və Qarşısının Alınması Mərkəzində (CENIPA) oxunması prosesində iştirak ediblər, əlavə məlumat və sübutların toplanmasını da həyata keçiriblər.



Məlumatda qeyd olunur ki, CVR (Cockpit Voice Recorder-kabina diktofonu) radio ötürmələrini və kabinadakı səsləri, məsələn, pilotların səslərini və kənar səsləri yazır, FDR (Flight Data Recorder - uçuş məlumatları qeydiyyatçısı) isə vaxt, hündürlük, uçuş sürəti, kurs və təyyarənin mövqeyi kimi uçuş əməliyyatları ilə bağlı vacib parametrləri izləməlidir. “Embraer 190-100 IGW” təyyarəsində hər iki funksiyanı birləşdirən iki CVFDR cihazı mövcud olub. BMAT tələblərinə əsasən, qəzanı araşdıran dövlət 30 gün ərzində ilkin faktiki məlumatları əks etdirən hesabatı BMAT və maraqlı tərəflərə təqdim etməlidir. Qazaxıstanda yaradılmış araşdırma komissiyası bu hesabatın hazırlanmasına Azərbaycan nümayəndələrini

### Təyyarə uçuşa tam yararlı olub

də cəlb edib.

İlkin hesabat isə aşağıdakı faktları təsdiqləyir ki, Bakıdan Rusiyanın Qroznı şəhərinə J2-8243 reysi üzrə müntəzəm uçuş həyata keçirən “Azərbaycan Hava Yolları” QSC-yə məxsus və dövlət reyestrində 4K-AZ65 nömrəsi ilə qeydiyyata alınmış “Embraer 190-100 IGW” tipli sərnişin hava gəmisi uçuşa başladıqda və Qroznıya qədər olan uçuş hissəsində tam uçuşa yararlı vəziyyətdə olub. Hava gəmisinin, o cümlədən onun idarəetmə sisteminin uçuşa yararlılıqla əlaqədar bu məlumatlar FDR vasitəsilə öz təsdiqini tapıb. Hava gəmisinin mühərriklərinin hər ikisi qəza anına qədər hər hansı texniki problem olmadan çalışıb. Bu məlumat FDR vasitəsilə təsdiq olunub.

### “Quş sürüsü” və “oksigen balonu” variantı mövcud deyil

Lakin hava gəmisi Rusiya Federasiyasının hava məkanında, o cümlədən Qroznı hava limanı üzərində uçuş əməliyyatları həyata keçirərkən GPS siqnallarının itməsi halı ilə üzləşib. Təyyarə hava şəraitinin əlverişli olmaması səbəbindən Qroznı üzərində ikinci enişi yerinə yetirə bilmədikdən sonra kapitan Bakıya qayıtmaq barədə qərar verib. Bu qərarın qəbul edilməsindən sonra Qroznı üzərində CVR-də 24 saniyə aralıqla iki dəfə kənar səsin gəlmə faktı qeydiyyata alınıb. CVR və FDR məlumatlarının tutuşdurulması nəticəsində müəyyən edilib ki, birinci kənar səsdən 4 saniyə sonra 3-cü hidravlik sistem, 6 saniyə sonra 1-ci hidravlik sistem, 21 saniyə sonra 2-ci hidravlik sistem funksionallığını itirməklə sıradan çıxıb.

Hava gəmisinin füzelyajında çoxsaylı dəlib keçən və kor zədələrin olması faktı aşkar olunub və foto, habelə video qeydiyyata alınıb. Həmin zədələr hava gəmisinin füzelyajının arxa hissəsində, xüsusilə şaquli və üfüqi stabilizatorlarında çox sayda, habelə sol qanadda və sol mühərrikdə aşkar olunub. Təyyarənin füzelyajında aşkar olunan zədələrin kənar obyektlərin təsiri nəticəsində formalaşması barəsində məlumat təqdim edilib. İlkin hesabatda hava gəmisinin quşlarla toqquşmasına işarə edən hər hansı fakt barəsində məlumat təqdim edilməyib. Təyyarənin qalıqlarının kor zədələrində olan hava gəmisinə məxsus olmayan kənar obyektlər aşkarlanaraq götürülüb və həmin kənar obyektlərin fotoşəkilləri ilkin hesabat mətnində ictimaiyyətə təqdim edilib. Gələcəkdə aşkar olunmuş kənar obyektlərin dəqiq mənsubiyyətinin müəyyənləşdirilməsi məqsədilə əlavə ekspertizaların keçirilməsi planlaşdırılıb.

### Yekun hesabat 1 il ərzində hazırlanacaq

Hesabatda qeyd olunur ki, 05:13:32-də hava gəmisinin əsas idarəetmə sistemləri itirilir, 05:21:42-də əlaqələndirici dispetçer “Kover” əməliyyatı barədə Qroznıya məlumat verir. Oksigen balonunun partlaması ilə bağlı faktı ehtiva edən hər hansı bir məlumat da qeyd olunmayıb. Burada sadalanan faktların təsdiqi ilə bağlı olan foto, habelə audio və rəqəmsal qeydiyyat vasitələrindən çıxarışlar ilkin hesabatın mətnində verilib.

BMAT-ın Çikaqo Konvensiyasına əsasən, ilkin hesabat hazırlandıqdan sonra qəzanın səbəbləri ilə bağlı qəza tarixindən 1 il ərzində yekun hesabat hazırlanmalıdır. Həmin yekun hesabatın hazırlanması ilə bağlı artıq Qazaxıstan Respublikası və araşdırmada iştirak edən digər dövlətlər tərəfindən işlərə başlanılıb.

*Nardar BAYRAMLI*

---

# Neokolonializmə qarşı yeni mübarizə dalğası

## Paris dekolonizasiya çağırışlarını qəbul etməli, üzr istəməli, təzminat ödəməlidir

XXI əsrin inkişaf səviyyəsi və çağırışları müstəmləkəçilik siyasəti ilə bir araya sığmır. Müstəmləkəçilik keçmişin eybəcər qalığıdır və ondan birdəfəlik imtina olunmalıdır. Bununla belə, özünü dünyaya demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransa Afrikada, dənizaşırı ərazilərdə çox ağır şərtlər altında müstəmləkəçilik siyasəti aparır. Yelisey Sarayı məqsədli şəkildə yerli xalqları assimilyasiyaya məruz qoyur, təbii sərvətləri amansızcasına talayır, nüvə sınaqları həyata keçirməklə, həmçinin nüvə qalıqlarını basdırmaqla ekoterrora əl atır. İndiyədək milyonlarla insan amansız soyqırımlarına məruz qalıb.

Daim ədalət mövqeyindən çıxış edən Azərbaycan da o fikirlə həmrəydir ki, qeyd olunan ərazilər BMT-nin qərarlarına uyğun qaydada dekolonizasiya edilməli, həmçinin Fransa törətdiyi cinayətlərə görə üzr istəməli və təzminatlar ödəməlidir. Ölkəmizin dünyada neokolonializm siyasətinə qarşı ardıcıl mübarizə aparması Afrikada, dənizaşırı ərazilərdə böyük rəğbətlə qarşılanır. Bunun əksinə olaraq Makron iqtidarı isə Azərbaycanın ədalətli, humanist yanaşmalara əsaslanan fəaliyyətlərinə qarşı kəskin qəzəbini ortaya qoyur. Yelisey Sarayı davamlı olaraq Azərbaycanı heç bir əsas olmadan Fransanın daxili işlərinə qarışmaqda günahlandırır. Bu xüsusda həmçinin Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baro danışır.

### İddialar əsassızdır

Təəssüf doğuran haldır ki, Makron iqtidarı müstəmləkəçilik siyasəti ilə bağlı Fransaya ünvanlanan haqlı tənqidlərdən nəticə çıxarmaq əvəzinə, əsassız izahlar verməklə və azadlıq mübarizəsinə qalxan xalqlara mənəvi-siyasi dəstək göstərən Azərbaycanı ittiham etməklə məşğuldur. Bir neçə gün bundan əvvəl Senatda müzakirələr zamanı Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baro növbəti dəfə Azərbaycanın Fransanın dənizaşırı ərazilərinə hansısa müdaxiləsi ilə bağlı iddialar yaymağa cəhd edib. Rəsmi Parisin belə mövqe tutması qəbuledilməzdir. Jan-Noel Baronun Azərbaycanı dənizaşırı ərazilərə müdaxilədə ittiham edən şərhi Fransanın Yeni Kaledoniyanın yerli əhalisinin tələblərinə qarşı hərəkətsizliyini ört-basdır etmək cəhdindən başqa bir şey deyil. Fransa rəsmisi tərəfindən Azərbaycanın dənizaşırı ərazilərə hansısa müdaxiləsi ilə bağlı iddiaları tamamilə absurddur. Azərbaycan bütün dövlətlərlə münasibətlərini xoş məramdan çıxış etməklə və bərabərlik prinsipinə əsaslanmaqla həyata keçirir. Məhz Fransa hər zaman regional məsələlərə qarışaraq, Azərbaycanın sülh və sabitliyi bərpa etmək istiqamətində apardığı prosesi pozmağa çalışıb.Yelisey Sarayının, şəxsən Makronun postmüharibə mərhələsində Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesində mənfi rol aldığı hər kəsə bəllidir. Azərbaycanı Fransanın daxili işlərinə qarışmaqda günahlandıran Yelisey Sarayı ilk növbədə özünün pozuculuq əməllərini, Cənubi Qafqazda və digər regionlarda törətdiyi təxribatları saf-çürük etməli və nəticə çıxarmalıdır. Rəsmi Paris ona heç bir aidiyyatı olmayan ərazilərə əl uzatmaq siyasətindən nəhayət geri çəkilməlidir. Makron nəhayət o reallığı qəbul etməlidir ki, Cənubi Qafqazın məsələləri məhz region dövlətlərinin iştirakı ilə həllini tapa bilər. Azərbaycanın təklifləri əsasında yaradılan Bakı Təşəbbüs Qrupu (BTQ) bir QHT kimi Fransanın müstəmləkə siyasətini və dənizaşırı ərazilərdəki problemlərini ictimaiyyətə çatdırmağı hədəfləyir. Bu cür qrupların işini gözdən salmaq cəhdləri dekolonizasiya prosesini sarsıdır.

Fransanın Yeni Kaledoniyada törətdiyi qanunsuz əməllərin üstündən sükutla keçmək mümkün deyil. Ötən il bu müstəmləkə ölkəsində bir insanlıq faciəsi yaşandı. Yerli kanak xalqı rəsmi Parisin bədnam “konstitusiya islahatlarına” qarşı çıxaraq bir nəfər kimi ayağa qalxdı. Makron iqtidarı bu azadlıq mübarizəsini zor gücünə dayandırmağa çalışsa da, buna müvəffəq olmadı. Kanak xalqının səsi məhz Azərbaycanın, Bakı Təşəbbüs Qrupunun fəallığı sayəsində beynəlxalq ictimaiyyətə çatdırıldı. Yalnız bundan sonra Makron geri addım atmaq məcburiyyətində qaldı. Yalnız keçən il güc tətbiqi nəticəsində azı 14 nəfərin həlak olduğu və bir çox insanın yaralandığı Yeni Kaledoniyanın yerli əhalisinə qarşı repressiya siyasətinə son qoymaq əvəzinə, Azərbaycana qarşı şantaj Fransanın xarici siyasət strategiyasının nə qədər faydasız olduğunu nümayiş etdirir. Fransanın müxtəlif beynəlxalq təşkilatlardakı rol və resurslarından bu ölkənin neomüstəmləkə siyasətinə qarşı təbliğat apармağı hədəfləyən beynəlxalq QHT müdafiəçilərinə təzyiq göstərmək üçün sui-istifadə etməsi mənasızdır və heç bir nəticə verməyəcək.

### Fundamental insan haqları heç bir ölkənin daxili məsələsi sayıla bilməz

Azərbaycan Afrikada, dənizaşırı ərazilərdə azadlıq mübarizəsinə qalxan xalqlara dəstəyini sistemli şəkildə həyata keçirir. Ölkəmizin təklifləri əsasında yaradılan Bakı Təşəbbüs Qrupu bu yöndə bir sıra uğurlu addımlar atıb. Məhz BTQ-nin fəaliyyəti nəticəsində Yelisey Sarayının Yeni Kaledoniya, Martinika və digər müstəmləkə ölkələri ətrafında qurduğu informasiya blokadasını aradan qaldırmaq mümkün olub. Bu yaxınlarda əsası Azərbaycanda qoyulmuş Beynəlxalq Dekolonizasiya Cəbhəsinin Yeni Kaledoniyada Konqresi keçirildi. Azadlıq mübarizəsinə qalxan xalqlar respublikamıza bir ümid yeri kimi baxırlar. Fransa rəsmiləri adaların müstəmləkəsizləşdirilməsi prosesini Fransanın daxili işi adlandırır və Bakı Təşəbbüs Qrupunu Fransanın daxili işlərinə qarışmaqda ittiham edirlər. Ancaq fundamental insan haqları və azadlıq istəyi heç bir ölkənin daxili məsələsi sayıla bilməz və öz ölkələrini demokratiyanın beşiyi adlandıran Fransa rəsmiləri də bunu yaxşı anlayırlar. XXI əsrdə müstəmləkəçiliyə yer yoxdur və bu ərazilərin öz müqəddəratını təyinetmə hüququ BMT-nin dekolonizasiyaya dair qətnamələrinə, xüsusən 1960-cı ildə qəbul edilən 1514 saylı qətnaməyə uyğun olaraq tanınmalıdır. Bu bəyannamə bütün formalarda müstəmləkəçiliyə tez və qeyd-şərtsiz son qoymağa çağırır. 2022-ci ildə qəbul edilən 77/148 saylı Qətnamə isə müstəmləkəsizləşdirmə ilə bağlı məlumatların yayılmasına diqqət yetirir, bu proses haqqında qlobal ictimai rəyin məlumatlandırılmasının vacibliyini vurğulayır. Fransa koloniyalardakı yaritmaz siyasətini, xalqın haqlı tələblərini dinləmək əvəzinə, xarici müdaxilə tezisini ortaya atıb diqqəti yayındırmaq istəyir. Sanki günahkar dekolonizasiya tələb edən şəxslər və BTQ-dir. Halbuki BTQ Fransa tərəfini əməkdaşlığa dəvət edir.



### Azərbaycan mövzunu gündəmə gətirir

BTQ təkcə Yeni Kaledoniyada deyil, qurumdan dəstək istəyən bütün ərazilərdə dekolonizasiya prosesinə yeni nəfəs gətirib. Koloniyaların səslərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynayan qurum onların öz fikirlərini ifadə etmələri üçün güclü bir platforma təmin edərək beynəlxalq təşkilatlarda məsələ qaldırır və BMT-nin diqqətini müstəmləkəçilik probleminə yönəltməyə çalışır. Beynəlxalq Dekolonizasiya Cəbhəsi yaradılıb və mübarizə üçün institutlaşma artıq mövcuddur.

Azərbaycan XXI əsrdə davam edən müstəmləkəçilikdən və onun yeni təzahürlərindən dərin narahatlıq keçirir. Respublikamız beynəlxalq ictimaiyyəti iyrənc neokolonializm praktikasına göz yummamağa, xüsusilə Fransanın nəzarətində olan ərazilərdə məcburi assimilyasiya siyasətinə qarşı çıxmağa çağırıb və neokolonializmə qarşı yeni mübarizə başladıb. Prezident İlham Əliyevin bu mövzunu nüfuzlu beynəlxalq platformalarda mütəmadi olaraq gündəmə gətirməsi, ədalət və beynəlxalq hüquq naminə müstəmləkəçiliyin tamamilə ləğv edilməsi məsələsini irəli sürməsi, keçmişdə və hazırda müstəmləkə şəraitində yaşayan xalqlar tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycan 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına (QH) sədrliyi çərçivəsində çoxtərəfliliyin dəyərlərini təşviq edib və bu məqsədlə Qoşulmama Hərəkatı Parlament, Gənclər və Qadınlar şəbəkələrinin yaradılmasına təşəbbüs göstərib. Ölkəmiz QH-yə sədrliyi dövründə həm də yeni müstəmləkəçilik meyillərinə qarşı mübarizənin əsas lokomotivi rolunu öz üzərinə götürüb. Məhz sədrliyimiz dövründə Bakı Təşəbbüs Qrupu yaradılıb.

Dünyanın bir çox bölgələrində, o cümlədən Afrikanın keçmiş Fransa müstəmləkələri - Niger, Burkina Faso, Seneqal, Əlcəzair, Tunis, Mali və digər ölkələrdə postkolonial idarəetmə strukturları ilə bağlı problemlər hələ də mövcuddur. Lakin görünən odur ki, son zamanlarda bu ölkələrdə suverenlik və dekolonizasiya uğrunda mübarizəni genişləndirmək üçün ciddi qərarlar qəbul edirlər.

Fransa rəsmilərinin absurd iddiaları Azərbaycanın ədalətli və prinsipial siyasətinə əsla təsir göstərə bilməz. Ölkəmiz qlobal səviyyədə müstəmləkəçiliyin bütün formalarının azaldılması və aradan qaldırılması istiqamətində fəaliyyətini davam etdirəcək. Çünki müstəqillik müstəmləkələrin qanuni haqqıdır. Bu haqqı onlardan heç kim, o cümlədən də Yelisey Sarayı ala bilməz.

*MÜBARİZ*

# USAİD-in korrupsiya “bataqlığı”...

## ABŞ Prezidenti araşdırma tələb edir

Bəzi hakimiyyətlər özlərinin məkrli siyasətlərini fərqli pərdələr altında örtməyə çalışırlar - bunun müasir növü “demokratiya”, “insan hüquq və azadlıqları” kimi gəlişigözəl sözlərdir. Hakimiyyətə gəldiyi ilk dövrlərdən “Demokratiya Sammiti” adı altında “diqtə və zorakılıq” siyasəti yürüdən Bayden administrasiyasının “yumşaq güc” vasitəsilə təsir rıçaqlarını daha da möhkəmləndirmək uğruna atdığı addımlar da ifşa olunur. Arxasında heç bir real səmimi hisslərin dayanmadığı məqsədli “demokratiya oyunları” ilə Bayden administrasiyası daha çox bu və ya digər ölkələrə “yol tapmaq uğrunda” mübarizə aparıb. Bəzi hallarda buna nail də olub - yeni əsrin “standartlarından” sayılan vətəndaş cəmiyyəti institutları, informasiya resursları bu məsələdə onların əlinə oynayıb. Xüsusilə bu işdə hazırda bütün layihələri dayandırılmış USAİD əsas “işi görüb”.

### Prezident Tramp ifşa etdi...

ABŞ-ın xarici siyasət kursunda ən mühüm yerlərdən birini tutan USAİD mübaliğəsiz demək olar ki, rəsmi Vaşinqton üçün bəlkə də Mərkəzi Kəşfiyyat İdarəsi (CİA), bəlkə də ondan artıq əhəmiyyət daşıyırdı. İllərlə MKİ kəşfiyyatçılarının görə bilmədikləri işi bu təşkilat rahat şəkildə “qlobal vətəndaş cəmiyyəti şəbəkəsi”, “demokratiyanın inkişafı uğrunda şəbəkə”, “azad informasiya resursları şəbəkəsi” formalaşdırmaqla həyata keçirib. Fərqli adlar altında mənimsənilən milyonlarla dollar isə bu təşkilatın hörümçək toruna bənzəyən “münasibətlər sisteminin” əsas xətti sayılıb. Təsadüfi deyil ki, artıq bir neçə gündür ki, fəaliyyəti əsaslı şəkildə yoxlanılan USAİD-lə bağlı mühüm informasiyalar yayılmaqdadır. Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp da ABŞ Beynəlxalq İnkişaf Agentliyini böyükmiqyaslı korrupsiyalaşmış təşkilat adlandırıb. O, bu barədə Ağ Evdə jurnalistlərə bildirib. “Mən bilmək istərdim ki, nə cür geriləmələr var. Kim bu qədər pul xərcləyərdi. Orada saxtakarlıq var, bu, dəhşətlidir. Heç bir pula layiq olmayan hər cür qruplara yüz milyonlarla dollar xərclənib”, -deyən dövlət başçısı vurğulayıb ki, o, heç vaxt belə bir şey görməyib və mümkün qədər tez məsələ ilə bağlı araşdırmaya başlamaq istəyir.



### Siyahı açıqlandı - pullar LGBT-yə yönləndirilib...

Qeyd edək ki, Tramp hələ inauqurasiya mərasimindəki çıxışında əvvəlki komandanın ölkədə formalaşdırdığı radikal və korrupsioner quruluşu pisləmişdi. Xalqa müraciətində Tramp hökumətin etimad böhranı ilə üzləşdiyini bildirmişdi və onları dövlətin əsas təsisatlarına etinasızlıq göstərərək vətəndaşlardan güc və sərvət qoparmaqda ittiham etmişdi. Nəzərə alınmalıdır ki, USAİD də Amerika xalqının vergiləri hesabına maliyyələşən qurumdur və bu təşkilatın fəaliyyətindəki korrupsiya faktları birbaşa xalqdan “oğurluq” kimi qiymətləndirilir. Ağ Evin dərc olunan USAİD tərəfindən maliyyələşdirilən bəzi layihələrin siyahısına baxdıqda isə Trampın vurğuladığı məqamlar daha aydın olur. Siyahıda müxtəlif ölkələrdə həyata keçirilən mübahisəli xərclər diqqət çəkib. Məsələn, Əfqanıstanda suvarma kanallarının yaradılması və gübrə alınması məsələsinə ayrılan pulların daha çox narkotik istehsalına yardım etməsi heç kimdə şübhə oyatmır. Eləcə də, “Əl-Qaidə” üzvləri üçün 100 min porsiya yemək təmin edilməsinə ayrılan pullar birmənalı şərşılana bilməz. Kolumbiyada “transgender opera” layihəsi, Peruda “transgender komikslərin” hazırlanması, İrlandiyada LGBTİ mövzulu müzikalın maliyyələşdirilməsi, Qvatemalada cinsiyyət dəyişikliyi və “LGBTİ aktivizmi” üçün 2 milyon dollar maliyyə dəstəyi kimi layihələr isə USAİD-in fəaliyyət mexanizminin və arealının üzərinə işıq salır. Qeyd edək ki, Tramp hakimiyyətə gəldiyi gündən LGBT-yə olan radikal münasibəti ilə seçilib.

Bundan başqa, USAİD-in layihələri arasında Serbiyada “iş yerlərində bərabərliyin və inklüzivliyin təşviqi” üçün 1,5 milyon dolların ayrılması, Vyetnamda elektromobillərin inkişafı üçün 2,5 milyon dollar vəsaitin xərclənməsi, Misirdə turizmin inkişafına 6 milyon dolların ayrılması, inkişaf etməkdə olan ölkələrdə fərdiləşdirilmiş kontraseptivlərə maliyyə dəstəyinin göstərilməsi də yer alır. Açıqlanan bu xərclər ABŞ ictimaiyyətində və beynəlxalq mediada geniş müzakirələrə səbəb olub. USAİD-dən bu layihələrin məqsəd və effektivliyi ilə bağlı rəsmi açıqlama gözlənilir.

### USAİD-in yardımları bu yolla “paylanırdı”...

Vurğulayaq ki, USAİD formal olaraq müstəqil dövlət qurumu olsa da, Prezidentə, Dövlət katibinə və Milli Təhlükəsizlik Şurasına hesabat verir. Agentliyin rəhbərliyini - inzibatçısı və onun müavinini Senatın razılığı ilə ABŞ prezidenti təyin edir. Ceyson Qrey 2025-ci il yanvarın 20-dən etibarən Administrator vəzifəsini icra edir. Ondan əvvəl USAİD-ə 2021-2025-ci illərdə ABŞ-ın BMT-dəki keçmiş daimi nümayəndəsi Samanta Pauer rəhbərlik edib. Qərargahı Vaşinqtonda yerləşən Agentliyin dünyanın 100-dən çox ölkəsində nümayəndəlikləri var. Agentliyin ştatında 10 mindən çox insan işləyir. Agentliyin proqram büdcələri 1961-ci il Xarici Yardım Aktına əsasən ABŞ Konqresi tərəfindən təsdiq edilir. Proqramların maliyyələşdirilməsinə hər il ABŞ federal büdcəsinin təxminən 1 faizi ayrılır. Yardımın bölüşdürülməsi bir sıra fondlar vasitəsilə həyata keçirilir. Onların arasında ən populyarları Milli Demokratiya Fondu (NED), Beynəlxalq Respublikaçılar İnstitutu (IRI), Milli Demokratik İnstitutudur (NDI). Agentliyin məlumatına görə, 2024-cü maliyyə ilində USAİD proqramları vasitəsilə 35,44 milyard dollar ayrılıb və ən çox yardım alan ölkələr sırasında Ukrayna, Konqo Demokratik Respublikası, İordaniya, Sudan və Yəmən olub.




### Kubaya çevriliş üçün göndərilən “tələbələr”...

Vurğulandığı kimi, USAİD kəşfiyyatla əlaqələri ilə bağlı dəfələrlə ifşa olunub. USAİD-in çətiri altında çalışan MKİ əməkdaşlarının bəzi uğursuzluqları da nəzərə çarpıb - Bir çox politoloqlar, o cümlədən amerikalılar (xüsusən də Uilyam Blum) iddia ediblər ki, Mərkəzi Kəşfiyyat İdarəsinin və Beynəlxalq İnkişaf Agentliyinin əməkdaşları son onilliklər ərzində dünyanın əksər ölkələrində, xüsusilə Latın Amerikasında bütün çevrilişlərdə və ya onlara qarşı cəhdlərdə iştirak edib, müxalifət liderlərinin müvafiq təlimini, onların maliyyələşdirilməsini, siyasi, ideoloji və texniki dəstəyini təmin ediblər. Eyni zamanda, Agentlik kritik vəziyyətdə müxalifətə silahlı dəstək üçün nəzərdə tutulmuş təhlükəsizlik qüvvələrinin “modernləşdirilməsi və reabilitasiyası” istiqamətində iş aparıb. Bir sıra fəaliyyətlər Keçid Təşəbbüsləri Ofisi (OTI) vasitəsilə maliyyələşdirilir. 2009-cu ildə konqres hesabatında qeyd olunurdu ki, OTI-nin işi tez-tez diplomatik uğursuzluğa səbəb olan siyasi iflasla müşayət edilib.

2013-cü ildə Boliviya USAİD-in ölkənin daxili işlərinə qarışmasını əsas gətirərək agentliklə əməkdaşlığı dayandırdı (ölkəni parçalamağa çalışan separatçı qruplara çoxmilyonlarla dollar köçürüb). 2014-cü ildə USAİD-in Kubadakı fəaliyyəti ilə bağlı qalmaqal yarandı. Associated Press jurnalistləri bu agentliyin əməkdaşlarının ölkədəki sabitliyi pozmaq və hakimiyyətin nüfuzunu sarsıtmaq üçün rep ifaçıları cəlb etdiklərini göstərən sənədlər əldə etdilər, həmçinin müxalif ajiotajı yaratmaq üçün Venesuela və Perudan olan tələbələr Kuba universitetlərinə göndərilibmiş.

18 sentyabr 2012-ci ildə isə USAİD Rusiyadakı fəaliyyətini bağladığını elan etdi. Bu ilin əvvəlindən isə USAİD Gürcüstanda bütün layihə və proqramlarını dayandırıb və əməkdaşlarını işdən azad edib.

### USAİD Azərbaycanda fəaliyyətini dayandırıb...




Agentliyin Azərbaycandakı fəaliyyəti də birmənalı olmayıb. Belə ki, bu ilin yanvarın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov gürcüstanlı həmkarı Maka Boçorişvili ilə Bakıda keçirilən birgə mətbuat konfransında bildirmişdi ki, USAİD-in yardımları Azərbaycanda ABŞ-nin maraqlarının icrasına xidmət edirdi: “Azərbaycan tərəfi hər şeyə rəğmən dedi ki, əgər ABŞ Azərbaycana yardım etməkdə maraqlıdırsa, həmin yardımlar rəsmi şəkildə bütün şəffaflıqları özündə əks etdirməlidir”.

Nazir bəyan etmişdi ki, USAİD-in 2024-cü il 1 iyul tarixindən Azərbaycanda fəaliyyət göstərməsi de-yure mümkün deyil. O xatırlatmışdı ki, 2000-si ildən çərçivə sənədi mövcud idi: “Biz o sənədin müddəalarını və son illər ərzində icranın necə baş verdiyini təftiş etdik. Məlum oldu ki, onların fəaliyyəti Azərbaycanın istəyi və maraqları formatında deyil, ABŞ-ın Azərbaycanda gündəliyinin həyata keçirilməsinə xidmət edir. Bunun əsasında həmin sazişin müddəalarına uyğun olaraq tərəfimizdən bildirişlər göndərildi və həmin şərtlərlə sazişin uzadılmasında maraqlı olmadığımızı bəyan etdik”.

Sazişin xitam müddəti isə 2024-cü ilin fevral ayına təsadüf edib. “Bu ərəfədə ABŞ-dan Azərbaycana ən yüksək səviyyədə USAİD çərçivəsində əməkdaşlığın davam etdirilməsi barədə mesajlar göndərildi. Biz qarşı tərəfə şərtlərlə bağlı danışıqların aparılmasının vacibliyini bildirdik və təkliflər yazılı şəkildə ABŞ-yə göndərildi. Lakin fevraldan iyun ayına qədər bizə məlum oldu ki, ABŞ öz istəyini diktə edərək Azərbaycana qəbul etdirmək istəyir və Azərbaycanın heç bir legitim maraqlarını nəzərə almaq istəmir. Bunları nəzərə alaraq Azərbaycan tərəfi həmin sazişin bir daha uzadılmaması barədə qərar qəbul etdi”, - deyən nazir demişdi ki, USAİD-in fəaliyyətinin dayandırılmasının vaxtı yetişmişdi: “Çünki biz danışıqlar zamanı gördük ki, ABŞ Azərbaycanın maraqlarını nəzərə almır və diqtə ilə öz maraqlarından çıxış etməyə çalışır. USAİD-in Azərbaycanda mövcudluğunun və təmsilçiliyinin davam etdirilməsinə ehtiyac yoxdur və fəaliyyətinin tam dayandırılmasının vaxtı yetişib”.

**P.SADAYOĞLU**

# “PocketQube” piko-peyki kosmik orbitə buraxılır

Hər gün, hər saat kosmik texnologiyalar sahəsində yeniliklər inkişaf etməkdədir. Son illər ölkəmizdə də kosmik sahədə maarifləndirmə, təbliğat və araşdırmaların aparılması istiqamətində mühüm addımlar atılıb. Bu sahənin inkişafı və gənclərin fəal iştirakı ilə əlaqədar müxtəlif tədbir və layihələr həyata keçirilir.

### Milli peyk proqramları

Yeni texnologiyalar həm elmi tədqiqatların daha dərindən öyrənilməsinə, həm də kommersiya məqsədli layihələrin inkişafına təkan verir. Xüsusilə, kosmosda fəaliyyət göstərən cihazların miniatürləşdirilməsi, yəni kiçikölçülü, yüngül, lakin yüksək funksionallığa malik cihazların hazırlanması bu sahədə yeni inqilabi dövr açır. Bu sahədə orta məktəblərimizdə də şagirdlərin inkişafı üçün mühüm addımlar atılmaqdadır.

Belə ki, məktəblərin müasir texnoloji avadanlıqlarla təmin edilməsi və müəllimlərin peşəkar inkişafı istiqamətində atılan addımlar da şagirdlərin gələcək uğurlarında mühüm rol oynayır. Xüsusilə kosmik yeniliklərlə bağlı seminarlar, təlim proqramları və layihələr vasitəsilə şagirdlər kiçik yaşlarından müasir texnologiyaların necə işlədiyini öyrənir və bu sahədə öz gələcək karyeralarını qurmağa təşviq olunurlar.

Azərbaycan kosmik tədqiqatlar sahəsində öz mövqeyini getdikcə gücləndirir. Son illərdə milli peyk proqramlarının həyata keçirilməsi, innovasiya müsabiqələrinin təşkili və Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat (STEM) təhsilinin inkişafı istiqamətində atılan mühüm addımlar gənc nəslin bu sahəyə marağını artırır və ölkədə texnoloji inkişafı sürətləndirir. Bu təşəbbüslər gəncləri yalnız nəzəri biliklərlə məhdudlaşdırmır, həm də real qlobal problemlərin həll yollarını tapmağa istiqamətləndirir. Məktəblilər arasında keçirilən innovasiya müsabiqələri, elmi konfranslar və texnologiya sərgiləri gənclərin öz ideyalarını təqdim etməsi və beynəlxalq səviyyədə tanınması üçün əlverişli platforma yaradır. Bu tədbirlərdə şagirdlər öz layihələrini inkişaf etdirərək mühəndislik, proqramlaşdırma və tədqiqat sahələrində təcrübə qazanırlar.



### Məktəblilərimiz peyk buraxacaqlar

Yeri gəlmişkən, bu il “SpaceX” daşıyıcı raketi vasitəsilə “PocketQube” pikopeykinin kosmik orbitə buraxılması planlaşdırılır. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib.

Bu layihə Azərkosmosun nəzdində fəaliyyət göstərən KOSMİK Akademiyanın təşkilatçılığı, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikası Təhsil İnstitutu, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, “Paşa Holdinq”, Braziliya Kosmik Agentliyi və Braziliyanın “IDEIA Space” şirkətinin dəstəyi ilə keçirilən “Azərbaycan Milli Peyk İnnovasiya Müsabiqəsi” çərçivəsində 7-9-cu sinif şagirdləri arasında baş tutacaq.

“PocketQube” peykləri ilk dəfə 2013-cü ilin noyabr ayında orbitə buraxılıb. Bu buraxılış Avstriyaya məxsus “UniSat-5” platforması vasitəsilə həyata keçirilib və layihə çərçivəsində bir neçə minipeyk, o cümlədən “WREN” (Almaniya), “T-LogoQube” (ABŞ) və “QBScout-1” (İtaliya) peykləri orbitə yerləşdirilib. Bu konsepsiya yalnız texnoloji tərəqqinin məhsulu deyil, həm də kosmosun hamıya aid olduğu ideyasının bir növ simvoludur.

Standart olaraq ölçüsü 5x5x5 sm, çəkisi isə təxminən 250 qram olan bu peyklər möhkəm materiallardan (alüminium ərintiləri, karbon kompozitlər) hazırlanır ki, bu da həm mexaniki davamlılığı, həm də istilik idarəetməsini təmin edir.

“SpaceX”in “birgə buraxılış proqramı” (“rideshare”) vasitəsilə kiçik peyklərin orbitə buraxılması xərclərinin azalması layihənin iqtisadi baxımdan daha əlçatan olmasını təmin edir. “Rideshare” proqramının mahiyyəti ondan ibarətdir ki, bir raket buraxılışı zamanı müxtəlif müştərilərə məxsus olan kiçikölçülü peyklər eyni anda orbitə çıxarılır.

Bundan əlavə, “SpaceX”in yüksək etibarlı buraxılış platforması “PocketQube” peykinin təhlükəsiz şəkildə orbitə çatdırılmasını təmin edəcək və layihənin texniki və elmi məqsədlərinin uğurla həyata keçirilməsinə imkan yaradacaq.

Göründüyü kimi, bu təşəbbüslər azərbaycanlı məktəblilərin beynəlxalq kosmik texnologiyalara inteqrasiyasını, qabaqcıl texnologiyaların təhsilə mühüm təsirini, məktəblilərin rəqəmsal savadlılığının artırılması istiqamətində atılan addımların rolunu bir daha vurğulayır. Bundan əlavə, bu layihələr gəncləri məktəb yaşlarından yerli və beynəlxalq səviyyədə yeni əməkdaşlıq qurmağa, praktiki təfbiqlər vasitəsilə nəzəri biliklərini mürəkkəb layihələrdə tətbiq etməyə təşviq edir.

**Yeganə BAYRAMOVA**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır

# Ehtiyac yaranacağı təqdirdə...

## Trampın Qəzza planı

İsrailin Baş naziri Benyamin Netanyahu ABŞ-a rəsmi səfər edib - Ağ Evdə onunla prezident Donald Tramp arasında ikitərəfli görüş baş tutub. İsrail mediasının məlumatına görə, görüş zamanı Tramp və Netanyahu bir sıra məsələləri - Qəzzadakı vəziyyət və regiondakı proseslər, o cümlədən ikitərəfli münasibətlərin inkişafı istiqamətində atılacaq addımları müzakirə ediblər. Görüşdən sonra Tramp və Netanyahu birgə mətbuat konfransı keçiriblər. Tramp öz açıqlamasında İsrailin ABŞ-ın ən önəmli müttəfiq olduğunu və Vaşinqtonun hər zaman İsrailin yanında olacağını bir daha diqqətə çatdırıb. Netanyahu da öz növbəsində Donald Trampın İsrailin ən böyük dostu və İsrailin ABŞ-la istənilən təhlükəyə qarşı birgə mübarizə aparcağını bəyan edib.

### Qəzza boşaldılsın...

Sözsüz ki, Tramp mətbuat konfrasındakı çıxışında Qəzza məsələsinə toxunmaya bilməzdi - bu bölgənin daim Vaşinqtonun diqqət mərkəzində olacağını vurğulayan Ağ Evin yeni rəhbəri bəyan edib ki, ehtiyac yaranacağı təqdirdə ABŞ öz qoşunlarını Qəzza zolağına göndərəcək. Bununla yanaşı, Tramp Yaxın Şərq siyasətində Səudiyyə Ərəbistanının xüsusi əhəmiyyət daşıdığını və yaxın zamanda regiona səfər etmək niyyətində olduğunu qeyd edib.

"ABŞ-ın Yaxın Şərq siyasətinə Səudiyyə Ərəbistanı dəstək olacaq. Onlar da sülh istəyir. Mən İsrail, Qəzza zolağı və Səudiyyə Ərəbistanına səfər etmək niyyətindəyəm," - deyə D.Tramp bildirib.

Qəzza zolağının hərbisizləşdirilməsinə münasibət bildirən Tramp bəyan edib ki, o, Qəzzənın tam boşaldılmasının və yerli əhalinin qonşu ölkələrə köçürülməsinin tərəfdarıdır.

"Hamısını, yəqin ki, 1,7 milyon insandan danışırıq. Düşünürəm ki, onlar gözəl həyat yaşaya biləcəklər və hər gün ölməkdən narahat olmadıqları ərazilərə köçürüləcəklər. Bu, İordaniya ola bilər,




Misir ola bilər, digər ölkələr də ola bilər və siz dörd və ya beş, deyək ki, zonalar qura bilərsiniz. Bu, bir ərazi olmaq məcburiyyətində deyil. Qəzza onların sağ qalmayacağının zəmanətidir."

Tramp Qəzza ilə bağlı digər planlarını da açıqlayıb və bu istiqamətdə nailiyyət əldə etmək üçün istənilən addımı atmağa hazır olduğunu deyib: "ABŞ Qəzza zolağına nəzarəti ələ keçirəcək və biz orada işləri görəcəyik, bütün partlamamış bombaların və digər silahların çıxarılmasına cavabdeh olacağıq, ərazini hamarlayacağıq, dağılmış binalardan xilas olacağıq."

### Trampın təklifinə ciddi reaksiya

Trampın Qəzza ilə bağlı bəyanatlarına reaksiya gecikməyib - HƏMAS-ın sözçüsü Hazem Qassım ABŞ prezidentinin bəyanatının irqçiliyi əks etdirdiyini, mənəvi və humanitar dəyərlərə zidd olduğunu bildirib. Fələstinin "İslami Cihad" təşkilatı isə öz bəyanatında Trampın fikirlərinin qəbuledilməz olduğunu vurğulayıb.

Qeyd edək ki, Donald Tramp bundan əvvəl də yerli əhalinin Qəzzadan çıxarılması ilə bağlı fikirlər səsləndirib - bu, Türkiyə və ərəb ölkələri tərəfindən çox ciddi tənqidlə qarşılanmışdı. Misir Prezidenti Əbdülfəttah Əs-Sisi və İordaniya kralı Abdullah ibn Al Hüseyn Trampın bu təklifini rədd edib və bu təkliflə heç bir zaman razı olmayacaqlarını və buna imkan verməyəcəklərini bəyan ediblər. Hər iki lider vurğulayıb ki, Qəzza daim Fələstinin nəzarətində qalmalıdır və münaqişə iki dövlətli həll planına uyğun nizamlanmalıdır.

Eyni zamanda bir neçə gün bundan öncə Qahirədə bu məsələ ilə bağlı toplantı keçirilib - Misir və İordaniya ilə yanaşı Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Fələstin Muxtariyyəti və Ərəb Liqasının rəsmiləri bir araya gələrək birgə bəyanat qəbul ediblər. Bəyanatda qeyd olunur ki, Qəzza və İordan çayının qərb sahilindəki ərazilərdə məskunlaşan əhalinin öz ərazilərindən zorla çıxarılması ilə bağlı irəli sürülən təkliflər beynəlxalq hüquq və beynəlxalq humanitar hüququn prinsiplərinə zid-



dir, regionun sabitliyini təhdid edir, münaqişəni alovlandırır və xalqlararası sülh və birgəyaşayış perspektivlərinə mane olacaq.

Ərəb ölkələrinin rəsmiləri, həmçinin bəyanatda İsrail-Fələstin bölgəsində iki dövlətli həll planı əsasında ədalətli və hərtərəfli sülhə nail olmaq üçün Tramp administrasiyası ilə birgə əməkdaşlıq etməkdə maraqlı olduqlarını diqqətə çatdırıblar, eləcə də beynəlxalq ictimaiyyəti fələstinlilərin öz torpaqlarında qalmasını təmin etmək üçün Qəzzanın hərtərəfli yenidənqurulmasına dəstək göstərməyə çağırıblar.

Trampın təklifinə Türkiyədən də münasibət bildirilib - fevralın 2-də Türkiyənin XİN rəhbəri Hakan Fidan Qətərli həmkarı Şeyx Məhəmməd bin Əbdülrəhman Əl Tani ilə birgə mətbuat konfransında bütün region ölkələrini Trampın bu siyasətinə qarşı çıxmağa çağırıb.

### Regiondakı reallıq...

ABŞ Yaxın Şərqdə öz geostrateji, geosiyasi və geoiqtisadi mövqeyini qoruyub saxlaya bilib, regionda müttəfiqləri var və regiondakı proseslərdə iştirak edir, amma etiraf etmək lazımdır ki, bölgədə artıq başqa güc mərkəzləri də meydana çıxıb - Ağ Evin yeni rəhbəri istər Qəzza, istər Suriya, istərsə də Yaxın Şərqlə bağlı digər məsələlərdə yerli aktorların mövqeyini və maraqlarını nəzərə almalıdır. Yəni, yaxın gələcəkdə Tramp administrasiyası Yaxın Şərqdə addımlarını atarkən güc mərkəzləri ilə birlikdə regionda proseslərin nizamlanmasına, xüsusilə münaqişələrin həllinə və təhlükəsizlik arxitekturasının formallaşmasına öz töhfəsini verə bilər.

Ümid etmək olar ki, Tramp bunu çox yaxşı başa düşəcək və elə bu istiqamətdə siyasətini yürütməyə çalışacaq. Yalnız qarşılıqlı maraqların nəzərə alınması və birgə təmasların qurulması regionda sülh, sabitlik və təhlükəsizliyin bərqərar olunmasına yol açıla bilər. Türkiyə, Səudiyyə Ərəbistanı, Misir, Qətər və İsrail bu məsələdə ABŞ-la əməkdaşlıq etməyə hazırdır.

*Yunis ABDULLAYEV*

# 18 ildən sonra...

## Əhməd əl-Şəraanın Türkiyə səfəri Yaxın Şərqə nə vəd edir?

Türkiyə Yaxın Şərqdə sülh, sabitlik və təhlükəsizliyə təminat verən aparıcı ölkəyə çevrilir - regional və beynəlxalq güc mərkəzləri Ankaranın regionda geostrateji və geosiyasi mövqeyini və maraqlarını nəzərə almaq məcburiyyətində olacaqlar. Son proseslər onu deməyə əsas verir ki, regionda qardaş ölkə - Türkiyəyə inam və etimad artır. Türkiyə nəinki Suriyada, həmçinin Yaxın Şərqin digər bölgələrində də geniş təsir imkanlarına malik olacaq.

Fevralın 4-də Suriyanın yeni hökumətinin lideri Əhməd əl-Şəraa Türkiyə rəsmi səfər edib. Qeyd edək ki, bu, 18 ildən sonra Türkiyəyə Suriya lideri tərəfindən edilən ilk səfərdir. Eyni zamanda qeyd etmək lazımdır ki, son on beş ildə Türkiyə ilə Suriya arasında heç bir diplomatik-siyasi münasibətlər olmayıb. Əl-Şəraanın bu səfəri iki ölkə arasında ikitərəfli münasibətlərin yenidən bərqərar olunmasına yol açacaq.

"TRT"-nin məlumatına görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Əhməd əl-Şəraa arasında baş tutan ikitərəfli görüşdə diplomatik-siyasi, iqtisadi-ticari və humanitar münasibətlərin qurulması, o cümlədən Türkiyə-Suriya müdafiə sazişi ilə bağlı məsələlər müzakirə edilib. Görüşdə Ərdoğan vaxtilə Suriyaya qarşı tətbiq olunan sanksiyaların aradan qaldırılmasına və indiki məqamda ərəb və İslam dünyasını Suriyanın yeni iqtidarına və xalqına lazımi maddi və mənəvi dəstək göstərməyə çağırıb.

"Suriyanın xarabaya çevrilmiş şəhərlərinin bərpasında da dəstəyə hazırıq. Suriya iqtisadi cəhətdən dirçəldikcə könüllü formada qayıdışlar da sürətlənəcək". - deyə Ərdoğan bildirib. Ərdoğan ölkəsinin terror təşkilatları ilə mübarizədə Suriyaya dəstək verməyə hazır olduğunu da bəyan edib.

Ə. Şaara isə öz növbəsində Suriyanın Türkiyə ilə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu bildirib.

Vurğulayaq ki, artıq bir sıra ekspertlər iki ölkə arasında imzalanması gözlənilən müdafiə sazişi ilə bağlı fikirlərini bölüşürlər. Onlar qeyd edirlər ki, bu sazişdə hərbi-müdafiə və hərbi-təhlükəsizlik sahələrində ikitərəfli münasibətlərin qurulması ilə yanaşı Suriyanın mərkəzində Türkiyə Hərbi Hava Qüvvələri bazalarının yaradılması da nəzərdə tutulur. Hətta Türk mediasında yayılan məlumatlara görə, Əhməd əl-Şəraa Ərdoğanla söhbət zamanı Suriyada Türkiyənin hərbi bazalarının artırılmasını, Tartus bazasının Türkiyənin istifadəsinə verilməsini də təklif edib.

Şübhəsiz ki, Suriyanın yeni hakimiyyətinin rəhbəri Əhməd əl-Şəraanın öncə Səudiyyə Ərəbistanına, ondan sonra isə Türkiyəyə rəsmi səfəri xüsusi əhəmiyyət kəsb edir - bu, bəlli zamanda Yaxın Şərq regionunda yeni proseslərin baş verəcəyini göstərir. Xüsusilə, Türkiyənin Suriyada hərbi nüfuzunun genişlənməsi və bu ölkənin təhlükəsizliyinə zəmanət durması qardaş ölkənin Yaxın Şərqdə geostrateji və geosiyasi mövqeyini daha da möhkəmləndirəcək.



### Türkiyənin əsas hədəfləri

Məsələ ilə bağlı Yaxın Şərq üzrə ekspert Vüqar Ziførоğlu "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, ikitərəfli səfərlər və görüşlər həm Türkiyə-Suriya münasibətləri, həm də regionda baş verən proseslər baxımından olduqca ciddi əhəmiyyətə malikdir. Onun sözlərinə görə, Türkiyə Suriyadakı münaqişənin qarşısının alınmasında aktiv iştirak edən regional güclərdən biridir və Ankaranın hədəfləri əsasən təhlükəsizlik, qaçqın böhranın həlli və milli maraqlara söykənib.

"Qardaş ölkənin əsas hədəfləri sırasında ilk yerdə Suriya ilə sərhədlərində sabitliyi qorumaqdır. Xüsusilə, YPG/PYD və PKK təhlükəsini aradan qaldırmaq məqsədilə hərbi əməliyyatlar həyata keçirir. Şimali Suriyada təhlükəsiz zona yaratmaq planları Türkiyəni həm separatçı qruplaşmalardan qorumağa, həm də qaçqınların geri qaytarılmasına hədəflənib. İkinci hədəf isə qaçqın böhranının həllidir. Türkiyə, hazırda ölkəsindəki təxminən 3,6 milyon suriyalı qaçqını öz sərhədləri daxilində təhlükəsiz zonalara köçürmək istəyir. Bütün bu məqamlar onu göstərir ki, Suriya qardaş ölkə üçün olduqca ciddi əhəmiyyətə malikdir. Görüşdə məhz bu məsələlərin, eləcə də Ankaranın Suriyanın yeni hökumətinə siyasi-iqtisadi dəstəyinin mümkün istiqamətlərinin müzakirə olunduğunu qeyd edə bilərik".





### Suriyanın təhlükəsizliyinin təminatçısı...

Türkiyənin Suriyada hərbi mövcudluğunun genişlənməsi məsələsinə toxunan V.Ziførоğlu vurğulayıb ki, bu, regiona ciddi təsir göstərəcək: "Ümumiyyətlə, görüşdə Türkiyə-Suriya hərbi əməkdaşlığı və iş birliyi ilə bağlı əldə edilən razılaşmalar regional baxımdan olduqca ciddi əhəmiyyətə malikdir. İstər Palmira hərbi aeroportunda aviabazaların yaradılması, Homs əyalətində yerləşən Suriya ordusunun T4 bazası ilə bağlı razılaşmalar olduqca önəmlidir. Lakin burada nəzərə alınacaq başqa bir məqam da Türkiyə-Rusiya münasibətləri faktorudur. Rusiyanın tamamilə Suriyada olan bazalardan çıxarılacağına inanmıram. Mümkündür ki, bu məsələdə Türkiyə, Rusiya və Suriyanın yeni hakimiyyəti arasında müəyyən razılaşmalar əldə olunsun".

### Azərbaycan da öz töhfəsini verə bilər

"Bildiyiniz kimi, Azərbaycan və Türkiyə arasında strateji hərbi əməkdaşlıq mövcuddur. Bu mənada ölkəmizin yalnız Türkiyənin hərbi mövcudluğu məsələsində deyil, ümumilikdə Suriyada faktiki olaraq qurulan yeni düzənə, dövlətə dəstəyi olduqca əhəmiyyətli məqamdır," - deyə V.Ziførоğlu əlavə edib ki, Azərbaycan bu məsələdə Türkiyəyə dəstək göstərməyə hazırdır: "İstər diplomatik-siyasi, istərsə logistik dəstək, istərsə də humanitar və bərpa proqramlarında birbaşa iştirak, Suriyanın yeni hökuməti ilə hərbi-texniki əməkdaşlığa qədər bir çox məqamlar qeyd oluna bilər".

*Yunis ABDULLAYEV*

# Aİ missiyası sülh prosesinə zərər vurur

## Yeni "təhlükəsizlik çətiri" yeni təhlükədir

Qərb Cənubi Qafqazda öz maraqlarını təmin etmək üçün Ermənistandan alət kimi istifadə edir. "Mülki missiya" adı ilə hərbi-kəşfiyyat qrupunun bu ölkənin ərazisində mövcudluğu da sözügedən məqsədlər sırasındadır. Əslində, son iki ildə sübut olunub ki, regionda Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının (EUMA) gerçək məqsədi sülhə töhfə vermək deyil.

Bütün bunların fonunda Avropa İttifaqı missiyanın müddətini daha iki il uzatmağa qərar verib. Avropa İttifaq Şurasının yaydığı məlumata görə, İttifaq ölkələri EUMA-nın fəaliyyətinin 2027-ci ilin fevralın 19-dək uzadılması barədə razılıq əldə ediblər. Müşahidə missiyasına bu dövr üçün 44 milyon avrodan çox büdcə ayrılıb. "EUMA Avropa İttifaqının regionda sülh və sabitliyin dəstəklənməsi səylərinin mühüm tərkib hissəsidir. Missiyanın məqsədi yerdəki vəziyyəti müşahidə etmək və hesabat vermək, münaqişədən təsirlənmiş ərazilərdə insanların təhlükəsizliyinə töhfə vermək, mümkün olduqca Ermənistan və Azərbaycan arasında etimadın yaradılmasına dəstək verməkdir", - deyə məlumatda bildirilib.

Aİ Şurası, həmçinin missiyanın vəzifələrinin dəyişməz olaraq qaldığını vurğulayıb, EUMA-nın silahsız mülki missiya olduğunu və belə də qalacağını iddia edib.

### Bu missiya Ermənistanın özü üçün yeni təhlükə yaradır

Məsələ ilə bağlı Milli Məclisin deputatı Nigar Məmmədova bildirib ki, Avropa İttifaqının "mülki missiya"sı bu regiona gərginliyi artırmaq məqsədilə yerləşdirilib. Onun sözlərinə görə, Azərbaycan haqlı olaraq bu "mülki missiya"nın şərti sərhəddə yerləşməsinin əleyhinədir: "Dövlətimizin başçısı da bəyan edib ki, Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan arasındakı şərti sərhəddə NATO tərəfindən infrastruktur yaradılıb. Məlumdur ki, həmin missiya sərhəddə kəşfiyyat məqsədilə fəaliyyət göstərir və təxribatlar törədir".

Millət vəkili deyib ki, Aİ-nin missiyasının tərkibi Azərbaycanın razılığı olmadan genişlənir. Ümumiyyətlə, Ermənistan anlamalıdır ki, bu missiyanın fəaliyyəti sülh prosesinə zərər verir. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, üçüncü qüvvənin iki ölkənin sərhədində olması vəziyyətin gərginləşdirilməsinə, Avropa İttifaqının bütövlükdə Cənubi Qafqazda hərbi amil kimi meydana çıxmasına xidmət edir. "Cari ilin əvvəlində Ermənistanın bir neçə istiqamətdə atəşkəsi pozması da sülh gündəliyi ilə bağlı bu ölkənin radikal mövqeyinin göstəricisi idi. Ermənistan bu cür təxribat və gərginliklər yaratmaqla Aİ missiyasına "ehtiyac var" görüntüsü formalaşdırmaq istəyir. Yəni, Ermənistan sülh istiqamətində addım atmaq əvəzinə 3-cü, 4-cü qüvvələrin regionda balansı pozmasına şərait yaradır. Missiyanın 2027-ci il fevralın 19-dək regionda qalması Ermənistana heç nə qazandırmayacaq. Ermənistan bu missiyaya "təhlükəsizlik çətiri" kimi baxır, amma əslində bu, Ermənistanın özü üçün yeni təhlükə yaradır. İrəvan anlamalıdır ki, Aİ missiyası regionda sülhün bərqərar olmasına kömək edən mexanizm deyil", - deyə Nigar Məmmədova vurğulayıb.

Deputatın fikrincə, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın missiyanın delimitasiya və demarkasiya prosesi başa çatana qədər bölgədə fəaliyyətini davam etdirməsi haqda söylədikləri çox cəfəng mövqedir. Çünki Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası və demarkasiyası prosesi iki ölkənin işidir. Şərti sərhəddə üçüncü tərəfin mövcudluğu gərginliyin artmasına səbəb olur.



### Ermənistanın ağlı başına gəlməsə...

Rusiyalı politoloq, təhlükəsizlik məsələlərinə dair ekspert Yevgeni Mixaylov da mediaya məsələni şərh edərkən bildirib ki, Avropa İttifaqının Ermənistandakı missiyasının ilk iki ili onun fəaliyyət məqsədinin Cənubi Qafqaz regionunda vəziyyətin sabitliyini pozmaq olduğunu göstərdi. Onun fikrincə, Aİ-nin Ermənistan ərazisində kəşfiyyatçılardan ibarət missiyasını genişləndirməsi əslində, təəccüblü deyil: "Hazırda Cənubi Qafqazda sabitliyə əsas təhlükə və böyük ehtimalla, İrəvanın regionda qalan yeganə müttəfiqi Aİ-dir. Bu, xüsusilə Donald Trampın Vaşinqtonda hakimiyyətə gəlməsindən sonra ABŞ ilə Aİ arasında münasibətlərin soyuması fonunda nəzərə çarpır. Şübhə yoxdur ki, amerikalılar bölgəni tərk etməyəcək, amma yəqin ki, Ermənistan rejiminə dəstəyi azaldacaqlar. Üstəlik, bu, artıq USAİD-in "erməni demokratiyasının inkişafına" kömək göstərməsinə qadağa qoyması fonunda baş verib".

Ekspertin sözlərinə görə, Aİ-nin öz missiyasının müddətini uzatmaq qərarı hazırkı məqamda Qərbin Cənubi Qafqazda forpostuna çevrilmiş İrəvana ümid vermək məqsədi də daşıyır. Y.Mixaylov hesab edir ki, Paşinyan açıq şəkildə dəyişikliklərdən qorxur: "Xüsusən, Trampın Ukraynaya dəstəyin azaldılması ilə bağlı sözlərini və Bayden komandasının Kiyev rejimini dəstəkləmək üçün milyardlarla dollar xərcləməsindən narazılığını nəzərə alsaq, bunu söyləmək mümkündür. Necə ki, ukraynalılar Rusiya ilə müharibədə demokratlar üçün "material" idilərsə, ermənilər də indi Aİ-dən ötrü eyni "material" kimidir, onlar da "xərclənəcək", amma bu, sonradan - Putin və Tramp arasında danışıqlardan sonra baş verəcək. Ermənistanı Aİ-yə qəbul etmək və bunun fonunda bu ölkədəki missiyanı genişləndirmək vədləri Bayden komandasının və onun avropalı tərəfdaşlarının əvvəllər Kiyevə verdiyi vədlərin bənzəridir. Bütün bunların nəticələrini hamımız görürük - iqtisadiyyatda fəlakət və dövlətçiliyi itirmək təhlükəsi. Ermənistanın ağlı başına gəlməsə, Aİ və NATO ilə əməkdaşlığı genişləndirmək əvəzinə Bakı ilə barışmasa, məhz bu cür ola bilər".

Göründüyü kimi, Aİ missiyasının daha iki il müddətinə uzadılması Ermənistan üçün yaxşı heç nə vəd etmir. Paşinyan hakimiyyətinin "manevr" cəhdləri ilk növbədə, ölkəsinin ziyanınadır.

*Nardar BAYRAMLI*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**
"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Doğru zamanda, düzgün dozada...

## Antibiotiklərdən istifadə qaydaları...

Soyuq havalarda mövsümi xəstəliklərin sayı artır. Həkimlər qış aylarında xəstəliklərə yoluxma ehtimalını azaltmaq üçün orqanizmə ciddi qulluq etməyi məsləhət görürlər. Bununla yanaşı, immuniteti gücləndirmək üçün A və C vitaminləri ilə zəngin olan meyvə-tərəvəz, süd-qatıqla qidalanmaq məsləhətdir. Ümumiyyətlə, qışda qidalanmaya xüsusi diqqət göstərmək vacib şərtdir.

Xəstəliyə yoluxanların əksəriyyəti isə əlacı ən asan yolda-antibiotiklərdə görürlər. Bəzən insanların əksəriyyəti, bilmədən, kor-koranə şəkildə antibiotiklərin istifadəsinə yol verirlər. Lakin bu durum kifayət qədər təhlükəlidir.




**Hazırda antibiotiklərin 60 növü istifadə olunur**

Qeyd edək ki, 20-ci əsrin ən böyük kəşfi olan antibiotiklər aşkar edilənə qədər infeksion xəstəliklər milyonlarla insanın ölümünə səbəb olurdu. İndiyə qədər 4 mindən çox antibiotik kəşf edilib, 200 növ antibiotik hazırlanıb. Amma hazırda onlardan cəmi 60-ı istifadə olunur. Bunun səbəbi isə mikrobların özlərini antibiotiklərin hücumundan qorumaq üçün onlara qarşı davamlılıq yaradıb antibiotiki parçalayan ferment hazırlamasıdır. Ən pisi də ondan ibarətdir ki, daim bir-biri ilə cütləşən bu mikroblar antibiotiklərə qarşı davamlılığı bir növdən digərinə də ötürürlər. Buna görə mütəxəssislər daim yeni növ antibiotiklər hazırlamağa məcbur olurlar.

İlk antibiotik olan penisillin hazırda öz əhəmiyyətini demək olar ki, tamamilə itir. Buna səbəb isə əksər mikrobların penisillini parçalayan fermenti hazırlamaqla, özlərini ondan qoruya bilməsidir.

**Səhv davranış...**

Antibiotikləri doğru zamanda düzgün dozada istifadə etmək lazımdır. Əks halda bağırsaq florasında ciddi pozulmalar baş verir. Bu vəziyyət insanın immun sisteminin çökməsinə və xroniki xəstəliklərin yaranmasına da şərait yaradır. Antibiotik istifadəsi nəticəsində əvvəllər mövcud olmayan xəstəliklərin yaranmasının əsas səbəbi budur.

**Göbələk riski...**

Adətən insanlar yüksək dozada antibiotik qəbul etdikdən sonra göbələk xəstəliyinə yoluxmaqdan narahat olurlar. Buna görə də istər həkim tövsiyəsi ilə, istərsə də öz qərarları ilə müxtəlif dərman preparatları ilə birgə göbələk əleyhinə dərmanlardan da istifadə edirlər. Əksər hallarda antibiotik istifadəsinin üçüncü günündən başlayaraq bəzi həkimlər də göbələk əleyhinə dərmanların istifadəsini tövsiyə edirlər. Səbəb olaraq bildirilir ki, bu preparatlar həm bədəndə olan zərərli mikrobları, həm də xeyirli hesab edilən mikrobları da məhv edə bilir. Belə olduqda pasiyentlərdə xəstəliyin ardından müxtəlif narahatlıqlar, göbələk kimi problemlər yarana bilir. Elə buna görə də həkim nəzarəti olmadan antibiotik istifadəsi məsləhət görülmür.



**Həkim təyinatı olmadan...**

Mövzu ilə bağlı "Yeni Azərbaycan"a danışan həkim Şahvələd Məmmədov bildirib ki, antibiotik insan orqanizmində hər hansı bir bakterial infeksiya baş verən zaman istifadə olunur: "İstifadə zamanı antibiotiklər patogen, yəni zərərli bakteriyalarla yanaşı, eyni zamanda bağırsaq florasındakı faydalı bakteriyaları da məhv edir. Bunun nəticəsində insanda qarın ağrısı, qusma, ishal, nadir hallarda qəbizlik baş verə bilər. Ona görə də antibiotikləri həkim təyinatı olmadan istifadə etməməliyik".

Ş.Məmmədovun sözlərinə görə, antibiotiklərin istifadəsi zamanı bakteriyaların divarına, zülal sintezinə, nuklein turşularına antiotik təsir olur: "Bu zaman antibiotikin orqanizmə müxtəlif mənfi təsirlərinin şahidi olmaq mümkündür. Ona görə də uşaqlara antibiotik vurularkən diqqətlə yanaşmaq lazımdır. Çünki böyüyən orqanizmə düzgün olmayan dozada seçilmiş antibiotik mənfi təsir edə bilər".

**Qaraciyər və böyrək zədələnmələrinə səbəb ola bilər**

Həkim qeyd edib ki, antibiotiklər böyrək və qaraciyər vasitəsilə orqanizmdən xaric olunur. Ona görə də yaşlılarda və xroniki xəstələrdə buna xüsusi diqqət yetirmək lazımdır: "Antibiotiklərin qəbulu həkim nəzarəti olmadan icra edilməməlidir. Əks halda orqanizmdə qaraciyər və böyrək zədələnmələrinə gətirib çıxara bilər. Xüsusilə körpələrdə ən yaxşı antibiotikin ana südü olduğu unudulmamalıdır. Ümumilikdə isə mümkün olduğu qədər az antibiotik istifadə etməyə, yalnız həkimin məsləhət gördüyü dozada və müddətdə qəbul etməyə diqqət yetirilməlidir".

*Yeganə BAYRAMOVA*

# Son mənzilə kim necə yola salınır?

## Dünyanın ən qəribə dəfn adətləri...



Bütün cəmiyyətlərdə insanlar sevdiklərini əbədiyyətə yola salmaq üçün müxtəlif yollardan istifadə edirlər. Zaman keçdikcə bu yollar heç vaxt tərk edilməyən bir ənənəyə çevrilir. Lakin standartlardan kənar həyata keçirilən dəfn mərasimləri, anım prosesləri var ki, onlar diqqət çəkməkdədir. Belə ki, dünyanın bəzi ölkələrində heyrət doğuran və görməyə alışmadığımız dəfn mərasimləri, adət-ənənələri var.

**Ölülərlə rəqs...**

Madaqaskarda ümumi dəfn adətidir. Malaqaslılar bir neçə ildən bir ölülərini qəbirdən çıxarır və onlara yeni kəfənlər geyindirirlər. Sonra yeni geyindirilmiş meyiti götürüb qəbrin başında rəqs edir, meyiti başlarının üstündə tutub musiqi çalırlar. İnsanlar bu dəfn mərasimini "sümüklərin qaytarılması" adlandırır və mərhumun cəsədinin parçalanmasını sürətləndirmək və mərhumun ruhunun axirətə sürətlə getməsini təmin etmək üçün edirlər. 17-ci əsrdən bəri ənənə olan bu ritual, ipək kəfənlərin baha olması və bəzi malaqasların bu təcrübənin köhnəldiyinə inanması səbəbindən tənəzzülə uğrayır. Lakin bir çox malaqaslılar ritualı hələ də davam etdirirlər, çünki onlar bu ritualı ailəni bir yerə toplayan şans kimi görürlər. Hökumət bu yaxınlarda vəbadan ölüm hallarının çoxalmasını Famadihana ilə əlaqələndirsə də, qadağan olunsa da, hələ də bunu edənlər var.

**Striptizli anım**

Banqkokda xəsislik üzündən həyatının itirən rahib Çukok adına qəribə yas mərasimi təşkil olunur. Belə ki, artıq hər il ənənə halını alan yas mərasimində buddist rahiblər özəl olaraq striptizlə məşğul olan qadınları çağırıb, dünyasını dəyişən rahib Çukok üçün rəqs etməsini tələb edirlər. Yarıçılpaq şəkildə rəqs edən xanımlar rahibin heykəlinin ətrafında dövr vuraraq, sözün əsl mənasında "şou" yaradırlar.

**Toy-bayramlı dəfn...**

İndoneziyanın Tana Toraja bölgəsində isə dəfn mərasimi sanki toy-bayrama çevrilir. Belə ki, dəfn mərasiminə gələn qonaqlar üçün fərqli xalqların musiqiləri səsləndirilir, rəqslər ifa edilir və çeşidli yeməklər paylanılır. Qeyd edək ki, dəfn mərasimi böyük maliyyə tələb etdiyindən hazırlıq həftələrlə sürür və artıq ölən şəxsin bədəni də çürüyür. Bununla da ev sahibləri ölən şəxsdən halallıq almış olurlar.

**"Göylərə qalxan ruh"**

Çinin Tibet, Qinqay bölgələrində, həmçinin Monqolustanın daxilində yaşayan və buddizmə inanan şəxslər yaxınları öldükdən sonra cəsədlərini parçalayaraq quzğunlara yedirirlər. Bununla onlar ölən yaxınlarını göy üzünə dəfn etmiş hesab edir və onların ruhlarının yenidən başqa bir bədəndə yer üzünə qayıdacağını düşünürlər.

**Planlaşdırılmış ölüm...**

Yaponiyada buddist rahiblər öz dəfn mərasimlərinə, hətta ölməklərinə belə əvvəlcədən hazırlanırlar. Belə ki, rahiblər ölməyi plana aldıqdan sonra ancaq meyvə və tərəvəz yeyərək bədənlərindəki yağı yandırmağa çalışırlar. Meyvə ilə qidalanan rahiblər həm də bu sırada idmanla da məşğul olurlar. İkinci addım kimi isə onlar zəhərli qurdları yeyərək qusmağa çalışırlar. Bununla onlar bədənlərindəki mayedən tamamilə xilas olmaq istəyirlər. Hər iki addım atıldıqdan sonra işin son məqamı gəlir. Belə ki, rahiblər son olaraq özləri üçün ayırdıqları tabutun içərisinə girir və hər gün sağ olduqlarını bildirmək üçün bir dəfə zil səsi çıxaran zəng çalırlar. Bununla onlar digər rahiblərə yaşadıqlarını sübut etmək istəyirlər. Artıq zil səsi gəlməyəndə digər rahiblər anlayır ki, tabutdakı şəxs ölüb və həmin tabutu möhürləyirlər. Möhürləmə prosesindən 100 gün keçdikdən sonra tabutdakı mumyaya dönüşmüş cəsəd müayinə edilir. Rahiblər bununla da inanırlar ki, ölən şəxs yenidən dünyaya gələcək.



Qeyd edək ki, bu ənənə Afrikanın da bəzi bölgələrində tətbiq olunur.

**Xanımlar ölən ərləri üçün özünü yandırır**

Hindistanda "Sati" adlandırlan ənənəni tətbiq edən insanlar isə ərləri öldükdə özlərini yandırırlar. Tarixin qədim dövrlərində bu ənənə ona görə tətbiq edilirdi ki, ölən döyüşçünün xanımı düşmən əlinə keçməsin. Yəni qadın özünü yandırmaqla, bir növ öz namusunu təmizləmiş olurdu. Lakin bu qəribə və belə desək, dəhşətli ənənənin indi hansı səbəbdən tətbiq olunduğu sual doğurmaqdadır.

*Yeganə BAYRAMOVA*



# Romao: "Qarabağ"ı dəstəkləməyə davam edəcəyəm

"Artıq sağollaşmaq vaxtı gəlib çatdı. Burada keçirdiyim hər an üçün hər kəsə təşəkkür edirəm". AZƏRTAC xəbər verir ki, bu sözləri "Qarabağ"dan ayrılaraq Macarıstanın "Ferentsvaroş" komandasına transfer olunan Julio Romao Ağdam təmsilçisinin rəsmi saytına açıqlamasında deyib.

Braziliyalı yarımmüdafiəçi "Qarabağ"a hər şeyin ən yaxşısını arzulayıb: "Hər zaman sizi dəstəkləməyə davam edəcəyəm. Çox sağ ol "Qarabağ", çox sağ ol Azərbaycan!"

Qeyd edək ki, 2022-ci ilin yayından Ağdam təmsilçisində çıxış edən Julio Romao 120 oyunda 2 qol vurub. O, 2022/2023 və 2023/2024-cü illər mövsümlərində Azərbaycan çempionu, 2023/2024-cü illər mövsümündə ölkə kubokunun qalibi olub.



# "Fair Play"in sahibi bəlli olub

Niderlandın Veyk-An-Zee şəhərində təşkil olunan nüfuzlu "Tata Steel Chess" turnirində Azərbaycanın mərhum şahmatçısı Vüqar Həşimovun adına təsis edilən "Fair Play" mükafatının 2025-ci il üçün sahibi məlum olub.

Azərbaycan Şahmat Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, turnirin bağlanış mərasimində mükafatın təsisçisi Qasım Həşimovun Avropa çempionu Vüqar Həşimovun adının yaşamasında həyata keçirdiyi layihələr, ölkəmizdə təşkil olunan Vüqar Həşimov Memorialının reallaşmasında gördüyü işlər yüksək qiymətləndirilib. Ardınca ötən ay dünyasını dəyişən Q.Həşimovun xatirəsi 1 dəqiqəlik sükutla yad olunub.

Bağlanış mərasimində əsas və "challenge" yarışı üzrə "Fair Play" mükafatını qazanan şahmatçılar təltif olunub. Vüqar Həşimov Fondu tərəfindən təsis edilən mükafat Nodirbek Abdusattarov (Özbəkistan) və Noqerbek Kazıbekə (Qazaxıstan) verilib. Hər iki şahmatçıya mükafatı Vüqar Həşimovun qardaşı, Azərbaycan Şahmat Federasiyasının İcraiyyə Komitəsinin üzvü Sərxan Həşimov təqdim edib.

Qeyd edək ki, Vüqar Həşimov Fondu tərəfindən təsis edilən mükafat 2016-cı ildən verilir. Bu il "Fair Play" mükafatı 10-cu dəfə təqdim olunub.




# 5 klub cərimələndi

AFFA İntizam Komitəsinin qərarları açıqlanıb. AZƏRTAC xəbər verir ki, Misli Premyer Liqasının XXI turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib. "Kəpəz"lə matçda ikinci sarıdan qırmızı vərəqə alan "Sabah"ın futbolçusu İqor Noqeyra 1 oyun cəzalanıb, klubu isə 500 manat cərimə edilib. "Neftçi" ilə görüşdə 5 futbolçusu sarı vərəqə ilə cəzalanan "Şamaxı" isə 700 manat cərimələnib.




"Səbail"lə görüşdə rəqibi aşkar qol imkanından məhrum edən "Turan Tovuz"un futbolçusu Kauan Martins birbaşa qırmızı vərəqə aldığı üçün 1 oyun diskvalifikasiya edilib. Tovuz təmsilçisi isə 1000 manat cərimə ödəyəcək. Bundan başqa, "Turan Tovuz"un məşqçisi Ruslan Abışov hakimin qərarına etiraz etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün biri şərti olmaqla 2 oyun cəza alıb, bölgə klubu isə 1500 manat cərimələnib. Sınaq müddəti 3 ay təyin edilib.

Həmçinin yerli komandanın azarkeşləri tərəfindən hakimlərin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə görə "Turan Tovuz" daha 1000 manat cərimə edilib.

"Sumqayıt"la matçda 4 futbolçusu sarı vərəqə alan "Araz-Naxçıvan" 700 manat ziyana düşüb.

"Zirə - "Qarabağ" oyunu bitdikdən sonra meydançaya kənar şəxs daxil olduğuna görə ev sahibi klub 800 manat cərimə ödəyəcək.

# Cüdo əfsanələri Bakıda...

Dünyanın ən güclü komandalarından biri olan Yaponiya əsas heyəti ilə Bakıda keçiriləcək "Böyük Dəbilqə" turnirində iştirak edəcək.

Azərbaycan Cüdo Federasiyasından AZƏRTAC-a bildiriblər ki, Yaponiyanın Olimpiya və dünya çempionları "Paris-2024" Yay Olimpiya Oyunlarından sonra ilk dəfə güclərini bu yarışda nümayiş etdirəcəklər.

Qadınlarda arasında Olimpiya və üçqat dünya çempionları Natsumi Çunoda (48 kiloqram), Uta Abe (52 kiloqram), Olimpiya və dünya mükafatçısı Ryuju Naqayama (60 kiloqram) məharətlərini göstərəcəklər.



Kişilərin mübarizəsində isə Azərbaycanın Olimpiya çempionu Hidayət Heydərovla dünya çempionatının finalında qarşılaşan Tatsuki İşihara (73 kiloqram), Olimpiya və dünya mükafatçısı Sanşiro Murao (90 kiloqram) gücünü sınayacaq.

Həmçinin, ikiqat Olimpiya və üçqat dünya çempionu Ono Şoheyinin də məşqçi kimi Yaponiyanın nümayəndə heyətinin tərkibində Bakıda olması gözlənilir.

Qeyd edək ki, fevralın 14-16-da Milli Gimnastika Arenasında keçiriləcək "Böyük Dəbilqə"də 39 ölkədən ümumilikdə 281 cüdoçu mübarizə aparacaq.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4347
Sifariş: 264
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova